# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

## BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

**“Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığının möhkəmləndirilməsi yolları” mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Qədirli Fidan Elman**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d. dos. Əhmədov Fariz Saleh**

**“___” ____________ 2019-cu il**

**“Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığının möhkəmləndirilməsi yolları” mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060403, “Maliyyə”**

**İxtisaslaşma: Maliyyə menecmenti**

**Qrup: 642**

**Magistrant**
**Qədirli Fidan Elman qızı**
**____________________imza**

**Elmi rəhbər**
**i.ü.f., dos. Atakişiyev Ruslan Bahyəddin**
**____________________imza**

**Proqram rəhbəri**
**i.e.n. dos. Seyfullayev İlqar Zülfüqar**
**______________________imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**
**______________________imza**

**BAKI – 2019**

## Elm andı

Mən, Qədirli Fidan Elman qızı and içirəm ki, “Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığının möhkəmləndirilməsi yolları” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığının möhkəmləndirilməsi yolları**


**Xülasə**

**Mövzunun aktuallığı: Ölkəmizdə kiçik və orta sahibkarlığın iqtisadiyyatındakı rolu və yeri tədqiqat işində araşdırılmışdır. Son illərdə rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafinda gəlir bölgüsünün müsbət təsiri, yoxsulluğun azaldılması və dəyişən bazar şəraitinə sürətli reaksiya vermək üçün kiçik biznesin dəstəklənməsi və təşviqi mexanizmlərindən geniş istifadə edilmişdir.**

**Tədqiqat işinin məqsəd və vəzifələri kiçik müəssisələrin fəaliyyətini təşviq etmək üçün hökumətin həyata keçirdiyi proqramların effektivliyini qiymətləndirərək ölkəmizdə fəaliyyət göstərən kiçik müəssisələrin inkişafını dəstəkləmək və gücləndirmək, eləcə də onların Azərbaycanda tətbiq olunması üçün beynəlxalq təcrübədən uğurlu nümunələr göstərməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat zamanı induksiya-deduksiya və analiz-sintez metodlarından istifadə olunmuş, nəticə qiymətləndirilməsi aparılarkən kiçik müəssisələrin iqtisadi-statistik təhlili, müqayisəli təhlil, ümumiləşdirmə, müşahidə, təsviretmə, ölçmə, eksperiment və qrafik tədqiqat üsulları tətbiq edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Dövlət Statitsika Komtəsinin statistik məcmuələri, İqtisadiyyat Nazirliyinin, Maliyyə Nazirliyinin hesabatları, kiçik müəssisələr üçün hazırlanmış rəsmi məlumatlar, hüquqi aktlar, fərmanlar və bu tədqiqat da əsas əhəmiyyət kəsb edən təhlil və şəxsi müşahidələr dissertasiyanın informativ bazasını təşkil etmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Maliyyələşdirmənin şaxələndirilməməsi, məhdud bazarlar, qanuni məhdudiyyətlər və sahibkarlıq bacarıqlarının olmaması kimi bəzi məhdudiyyətlər Azərbaycanda kiçik müəssisələrin inkişafina mane olur. Sahibkarlar bazarın ehtiyaclarını ödəmək üçün bilik və təcrübə çatışmazlığını hiss edirlər və bu nəticə etibarilə biznesin inkişafina müəyyən məhdudiyyətlər yaradır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticəsi: Azərbaycanda kiçik həcmli müəssisələr düzgün inkişaf etməsi üçün müəssisələrin qeydiyyatı prosedurlarının sadələşdirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi ilə əlaqədar vəziyyətin dəyişdirilməsi zəmnində müəyyən addımlar atılmışdır. Lakin statistik göstəricilərə əsasən bu addımlar hələ də qənaətbəxş deyil və dünya praktikasında istifadə olunan ən perspektivli metodları tətbiq etmək lazımdır.**

**Nəticələrin tətbiq sahələri: Araşdırmalar zamanı əldə edilmiş elmi nəticələr, müasir şəraitdə kiçik müəssisələrdə maliyyə resurslarının təşəkkülü, səmərəli istifadə imkanlarının aşkarlanması və formalaşmasında tətbiq edilərək praktiki əhəmiyyət kəsb edə bilər.**



**Açar sözlər: maliyyə dayanıqlığı, rəqabət qabiliyyəti, islahat, mənfəət**

**Ways to strengthen the financial sustainability of small businesses in Azerbaijan**

**Summary**

**The relevance of the research: This research explores the role and place of small enterprises in the country's economy in Azerbaijan. In recent years, small business support and incentive mechanisms have been widely used to develop a competitive economy with the positive impact of income distribution, poverty reduction and rapid response to changing market conditions.**

**The research purpose and objectives: The research purpose and objectives are to support and intensify the development of small business in the country by assessing the effectiveness government programs held by the government to encourage small business enterprises' activity, as well as to give successful examples of international experience to apply them in Azerbaijan.**

**The limitation of the research: Some restrictions prevent the development of small businesses in Azerbaijan. These barriers include limited financial resources, limited market access, some legal restrictions, and a lack of entrepreneurial skills. Entrepreneurs feel a lack of knowledge and experience to understand the needs of the market, which in turn impedes business development. By the way, the weak development of incentive mechanisms is one of the factors hindering the successful operation of small business in the country.**

**The result of the research: For the proper development of small enterprises in Azerbaijan, certain steps have been taken to simplify the registration procedures of enterprises and change the situation in connection with the improvement of tax administration. However, according to statistics, these steps are still unsatisfactory, so it is necessary to apply the most promising methods used in world practice.**

**Keywords: financial sustainability, competitiveness, reform, profit.**

# İxtisarlar və İşarələr

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **ARMB** | Azərbaycan Respublikası Mərkəzi Bankı |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **ƏDV** | Əlavə dəyər vergisi |
| **İİETİ** | İqtisadi İslahatlar Elmi Təqdiqat İnstitutu |
| **İİTKM** | İqtisadi İslahatların Təhlili və Komunikasiya Mərkəzi |
| **KOBİA** | Kiçik və Orta Biznesin İnkişaf Agentliyi |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **VMZ** | Valyuta məzənnəsi üzrə zərər |

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| | **GİRİŞ**······································································································· | **3** |
| **I fəsil.** | **KİÇİK MÜƏSSİSƏLƏRİN MALİYYƏ DAYANIQLIĞININ KONSEPTUAL MƏSƏLƏLƏRİ** ··························································· | **7** |
| 1.1. | Kiçik müəssisələrdə maliyyə dayanıqlığının nəzəri əsasları ························· | 7 |
| 1.2. | Kiçik müəssisələrin maliyyə dayanıqlığının təhlili və qiymətləndirilməsi metodları ··························································································· | 22 |
| **II fəsil.** | **AZƏRBAYCANDA KİÇİK MÜƏSSİSƏLƏRİN MALİYYƏ DAYANIQLIĞININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ** ···················································· | **34** |
| 2.1. | Kiçik müəssisələrin maliyyə dayanıqlığının təhlili ···································· | 34 |
| 2.2. | Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığı səviyyəsinə təsir göstərən amillərin təhlili ······································································ | 51 |
| **III fəsil.** | **KİÇİK MÜƏSSİSƏLƏRİN MALİYYƏ DAYANIQLIĞININ YÜKSƏLDİLMƏSİ YOLLARI** ···················································· | **59** |
| 3.1. | Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığı ilə bağlı məhdudiyyətlər ························································································ | 59 |
| 3.2. | Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığının artırılması istiqamətləri ························································································ | 65 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR** ············································································ | **71** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ···························································· | **77** |
| | Cədvəllərin siyahısı ······································································ | 79 |

# GİRİŞ

**Mövzunun aktuallığı.** İnkişaf edən çağdaş dövrdə yeni, perspektivli kiçik müəssisələrin inkişafi və maliyyə dayanıqlığının təmin olunması Azərbaycan iqtisadiyyatının başlıca hədəflərindən biridir. Dünya təcrübəsinə əsasən kiçik müəssisələrin maliyyə dayanıqlığı iqtisadiyyata təsir göstərən əhəmiyyətli qüvvə olub, daxili istehlak bazarının formalaşmasında, sağlam rəqabət üçün geniş imkanların yaranmasında, işsizliyin aradan qaldırılmasında və son nəticə olaraq dövlət büdcəsinin zənginləşməsində əhəmiyyətli yer tutuduğunu qeyd etmək olar. Kiçik müəssisə sahibləri fəaliyyəti zamanı risk səviyyəsini nəzərə alaraq mənfəət və kapital artımının marağında olmalıdır. Bunun üçün o, dayanıqlı maliyyənin təmin edilməsi məqsədilə maliyyə resurslarmın bölüşdürülməsi və istifadəsinin optimal həll yollarını tapmalıdır. Bu səbəbdən dissertasiya işi kiçik müəssisələrin maliyyə dayanıqlığının möhkəmləndirilməsi və ölkənin iqtisadi inkişaf strategiyasında həmin müəssisələrin roluna həsr edilmiş tədqiqat sayıla bilər.

Rəqabət şəraitində kiçik müəssisələrin müflisləşməyə və böyük maliyyə itkisinə yol verilməməsi, müəssisənin iqtisadi potensialının sabit artım tempinin qorunaraq bazar dəyərinin yüksəldilməsi, istehsal həcmini genişləndirərək və xərcləri azaldaraq gəlirlərin artırılması məqsədi ilə cənab prezidentimiz bu barədə sərəncam imzalamışdır. Bu sərəncamda iqtisadiyyatın əsas sektorları və milli iqtisadiyyat üzrə əsas hədəf və indikatorlardan, həmçinin bundan irəli gələn məsələlərdən bəhs olunur. 2016-cı ilin 6 dekabr tarixində imzalanmış Strateji Yol Xəritəsi sərəncamında ölkədə istehlak mallarının istehsalı ilə bağlı fəaliyyət göstərən sahibkarlıq fəaliyəəti ilə bağlı bu sahədə görüləcək işlər müəyyənləşdirilmiş, eyni zamanda davamlı dayanıqlığın möhkəmləndirilməsi məqsədilə tədqiqatlar aparılmışdır. Ölkədə biznes mühiti və tənzimləyici bazanın təkmilləşdirilməsi üçün kiçik müəssisələrin inkişafi ilə əlaqədar strateji məqsədlərə nail olunaraq müvafiq imkanlardan maksimum istifadə edilməli, maliyyə dayanıqlığının möhkəmləndirilməsi üçün maliyyə resurslarından sərfəli və səmərəli istifadə təmin edilməli, kiçik sahibkarlıq fəaliyyəti beynəlmiləlləşdirilməli və xarici ölkə

bazarlarına çixiş imkanları artırılmalı, keyfiyyətli məhsul və xidmət təklifləri araşdırılaraq inkişaf fəaliyyəti gücləndirilməlidir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Son dövrlərdə yerli və xarici alimlərinin əsərlərində müxtəlif aspektlərdə kiçik müəssisələrin maliyyə dayanıqlığının möhkəmləndirilməsi yolları və onların potensialından istifadənin səmərəliliyinin artırılması istiqamətində araşdırmalara rast gələ bilərik. Nəzərə alaq ki, digər ölkələrlə nisbətdə Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığının araşdırılması hələ özünün inkişaf mərhələsindədir və bu sahədə sektorun inkişafina mane olan bəzi problemlər mövcuddur. Azərbaycan alimləri, (Manafov Q., Atakişiyev R.B., Hüseynov T.Ə, Hüseynov X.Ə., Kazımlı X.H., Novruzov N.A., Namazova C.B., Kazmov R.N., Zeynalov V.Z., rus alimləri (Крылов С.И, Гребенщикова Е.В., Ефимова О.В.) və türk alimləri (Aracı H, Yüksel F., Uludağ İ., Serin V. və başqaları) öz əsərlərində kiçik müəssisələrin inkişafinda maliyyə dayanıqlığına nail olunması məqsədilə maliyyə mexanizmlərinin təkmilləşdirilməsi, dayanıqlıq göstəricilərinin təhlil olunması, kiçik müəssisələrdə maliyyə dayanıqlığına mənfi təsir edən amillərin aşkarlanaraq aradan qaldırılması və s. aspektlər üzrə nəzəri-metodoloji, o cümlədən, praktiki məsələlərin tədqiqatına üstünlük vermişlər. Ölkəmizdə maliyyə dayanıqlığı üzrə araşdırmalar ən təfərrüatlı şəkildə İqtisadiyyat Nazirliyi nəzdində fəaliyyət göstərən İqtisadi İslahatlar Elmi Təqdiqat İntsitutu (İİETİ), Azərbaycan Milli Elmlər Akademyası İqtisadiyyat İnstitutu, Azərbaycan Respublikası Mərkəzi Banknın (ARMB) elmi tədqiqat institutlarında və son dövrlərdə Kiçik və Orta Biznesin İnkşafı Agenliyi (KOBİA), o cümlədən, İqtisadi İslahaltarın Təhlili və Komunikasiya Mərkəzi (İİTKM) tərəfindən həyata keçirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Aparılmış tədqiqat işində məqsəd kiçik müəssisələrdə maliyyə dayanıqlığının möhkəmləndirilməsinin elmi-nəzəri əsaslarının araşdırılması, Azərbaycanda kiçik müəssisələrin inkişaf dinamikasında alternativ yolların tapılması, dayanıqlıq indikatorlarının təhlili nəticəsində tətbiqinin artırılmasıdır. Həmçinin, Azərbaycanda kiçik müəssisələrin maliyyə stabilliyinin

qorunub saxlanılması ilə bağlı tövsiyyələr verilmiş və elmi əsaslara dayanan təkliflər işlənib hazırlanmışdır. Dissertasiya işində məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Kiçik müəssisələrin maliyyə dayanıqlığının rolunu və nəzəri əsaslarını araşdırmaq;
- Kiçik müəssisələrin maliyyə dayanıqlığının başlıca indikatorlarından istifadə edərək mövcud vəziyyəti təhlil etmək;
- Kiçik müəssisələrin maliyyə dayanıqlığının formalaşdırılmasında dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etmək;
- Kiçik müəssisələrin maliyyə dayanıqlığının təmin olunmasında stimullaşdırıcı tədbirlərin istiqamətlərini tədqiq etmək;
- Kiçik müəssisələrin maliyyə dayanıqlığının qorunub saxlanılmasında mövcud problemləri aradan qaldırmaq üçün alternativ həll yollarını tədqiq etmək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini kiçik müəssisələrin ölkə iqtisadiyyatının inkişafinda istiqamətlənmiş öncül sahə kimi seçilməsi, maliyyə dayanıqlığının mövcud vəziyyəti, problemləri, bu sahədə inkişaf pesrpektivlərinin araşdırılması və təlhili təşkil edir. Tədqiqatın predmetini isə kiçik sahibkarlıqda Azərbaycanın kiçik müəssisələrinin inkişafi baxımından maliyyə dayanıqlığınının indikatorlarından istifadə edərək onun möhkəmləndirilməsi təşkil edir.

**Tədqiqat metodları.** Tədqiqat zamanı induksiya-deduksiya və analiz-sintez metodlarından istifadə olunaraq təhlil edilmişdir. Analiz metodu zamanı kiçik müəssisələrin maliyyə dayanıqlığı mövzu kimi bir başlıq altında tam olaraq götürülmüş və növbəti mərhələdə isə alt başlıqlara bölünmüş və ayrılıqda təhlil olunmuşdur. Sonrakı mərhələdə isə sintez metodu ilə bu alt başlıqlar iqtisadi nəzəriyyələrə əsaslanan sistemdə toplanmışdır. İnduksiya metodu vasitəsilə kiçik müəssisələrin maliyyə dayanıqlığı haqqında araşdırılaraq iqtisadi faktlar yığılmış və vahid bir formada sistemləşdirilmişdir. Deduksiya metodu ilə toplanmış informasiyalar əsasında nəticə, prinsiplər, başqa sözlə, praktiki fəaliyyətlər üzrə bir çox tövsiyyələr verilmişdir. Nəticə qiymətləndirilməsi aparılarkən, həmçinin kiçik

müəssisələrin iqtisadi-statistik təhlili, müqayisəli təhlil, ümumiləşdirmə, müşahidə, təsviretmə, ölçmə, eksperiment və qrafik tədqiqat üsulları tətbiq edilmişdir.

**Tədqiqatın informasya bazası.** Dövlət Statitsika Komtəsinin (DSK) statistik məcmuələri, İqtisadiyyat Nazirliyinin, ARMB-nin, Maliyyə Nazirliyinin hesabatları, kiçik müəssisələr üçün hazırlanmış rəsmi məlumatlar, hüquqi aktlar, fərmanlar və bu tədqiqat da əsas əhəmiyyət kəsb edən təhlil və şəxsi müşahidələr dissertasiyanın informativ bazasını təşkil etmişdir.

**Tədqiqatın məhdudiyyətləri.** Tədqiqatın əsasını Azərbaycan Respublikasında mövcud olan kiçik müəssisələr təşkil etdiyi üçün burada onların maliyyə dayanıqlığı, maliyyə stabilliyinin yaradılması zamanı qarşıya çıxan problemləri, iqtisadi fəallığın və rəqabətqabiliyyətliliyin artırılmasında rolu təhlil edilmişdir. Ölkəmizdə kiçik müəssisələrin gələcək istiqamətli iqtisadi inkişafindakı perspektivləri analiz edilərək qanuni çərçivədə maliyyə dayanıqlığının təmin edilməsi üçün alternativ həll yolları araşdırılmışdır. Tədqiqatın məhdudiyyəti də məhz burada yaranır.

**Tədqiqatın elmi yeniliyi.** Ölkəmizdə fəaliyyət göstərən kiçik müəssisələrin maliyyə resurslarının metodoloji əsasları və onların idarə olunmasının strateji istiqamətləri, maliyyə nəticələrinin qiymətləndirilməsi yolları araşdırılmış, bu müəssisələrin maliyyə dayanıqlığının təhlili və səmərəliliyinin artırılması yolları dövlətin maliyyə siyasətinə uyğun tədqiq edilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri.** Araşdırmalar zamanı əldə edilmiş elmi nəticələr, müasir şəraitdə kiçik müəssisələrdə maliyyə resurslarının təşəkkülü, səmərəli istifadə imkanlarının aşkarlanması və formalaşmasında tətbiq edilərək praktiki əhəmiyyət kəsb edə bilər.

# I FƏSİL. KİÇİK MÜƏSSİSƏLƏRİN MALİYYƏ DAYANIQLIĞININ KONSEPTUAL MƏSƏLƏLƏRİ

## 1.1 Kiçik müəssisələrdə maliyyə dayanıqlığının nəzəri əsasları

Hər bir ölkənin iqtisadiyyatının və onun iqtisadi inkişafının təməlini mülkiyyəti müxtəlif formalı olan müəssisələr təşkil edir. Kiçik müəssisələrdə məhsulun istehsalı, müxtəlif səviyyələrdən olan işlərin görülməsi, çoxsaylı müştərilərin tələbatlarına uyğun xidmətlərin göstərilməsi kimi həyatı əhəmiyyətdə olan proseslər baş verir. Mülkiyyətinin formasından asılı olmadan mövcud "Müəssisələr haqqında" ölkəmizin qanununa müvafiq olaraq istiqamətdə yaradılan və ictimai tələbatların lazımlı şəkildə ödənilməsi və mənfəətin əldə edilməsi məqsədi ilə tələb olunan məhsulları istehsal edən və satan, işləri lazımınca görən, eyni zamanda xidmətləri göstərən hüquqi şəxs və müstəqil olan təsərrüfat subyekti müəssisə adlanır. (http://www.e-qanun.az/framework/9081)

Kiçik müəssisələrin həm respublikanın daxili bazarları üçün, həm də təşəbbüskar insanların yaradıcılığının üzə çıxması üçün nə dərəcədə mühüm rol oynadığı hər kəsə məlumdur. Eyni zamanda, kiçik müəssisələri istər respublikanın, istərsə də dünyanın iqtisadiyyatında əhəmmiyyətli kəsb edilməsinə səbəb olan bir sıra amillər mövcuddur. Bunlardan bazar münasibətlərinə keçid ilə bazar mexanizminin təkmilləşdirilməsini, istehsalçılarla istehlakçılar arasında əvvəlki dövrlər kimi dolayı deyil birbaşa iqtisadi əlaqələrin yaranmasını, işçi qüvvəsinin kiçik müəssisələrə cəlb edilməsi ilə əhalinin bağlanılmış müxtəlif növdən olan müqavilələr əsasında gəlirlərinin və alıcılığa görə qabiliyyətinin yüksəlməsini nümunə kimi göstərə bilərik. Dəyərli iqtisadçı alimlərin təhlilləri əsasında aldıqları nəticələrin göstərilmiş olduğu iqtisadi ədəbiyyatların bir hissəsinə nəzər saldıqda görə bilər ki, müəssisələri xırda və kiçik müəssisələr olaraq iki istiqamətdə hissələrə ayıraraq təhlil etmək mümkündür:

1. Xırda müəssisələr - bunlara bəzən tək adamlıq müəssisə də deyilir. Belə müəssisələrdə əksər işləri bir nəfər həyata keçirir. Həmin şəxs, yəni müəssisənin sahibi həm sərmayə sahibi, həm iş sahibi, həm iş gördürən, həm

qərar verən, həm də ki qazanc sahibi olur. Bu cür müəssisələr müəyyən müddət sonra özlərini inkişaf etdirərək azsaylı işçi qrupu ilə müəssisələrə belə çevrilə bilirlər. Qazancın, riskin bir fərdə məxsus olduğu bu növdən olan müəssisələrdə idarəetmə sadə, qərarvermə isə çevikdir.

2. Kiçik müəssisələrə isə istiqamətləri üzrə göstərdikləri fəaliyyətdən asılı olaraq, müqavilə əsasında işçilərin sayını nəzərdə saxlayıb, bu tipdən olan müəssisələrə kiçik müəssisələr adı verilir. Bu tip müəssisələrin, yəni, kiçik müəssisələrin əsas özəlliklərindən biri də odur ki, onlar həm az kapital sahibi olurlar ki, bunun da əsas müsbət tərəfi nəticə etibarilə iri firmaların təsirlərinə tab gətirə bilirlər. Digər tərəfdən isə kiçik müəssisə olmaqları səbəbindən bazarın konyunkturasının dəyişməsinə qarşı hər bir şəkildə həssas olurlar. (Atakişiyev R., 2013, fevral, http://ser.az/az/pages/8/)

Kiçik müəssisələrin istər kiçik, istərsə də böyük təsərrüfat fəaliyyətində yeri və rolu danılmazdır. Beləliklə, onlar, yəni kiçik müəssisələr sosial cəmiyyətin sosial-iqtisadi problemlərinin həll edilməsinə olduqca böyük kömək edir və eyni zamanda regional iqtisadiyyatın inkişafı üçün öz lazımlı müsbət istiqamətli təsirini göstərir. Buna misa1 kimi yeni iş yerləri yaradılması ilə ölkədə məşğulluğun artırılmasını və yanaşı olaraq ölkəmizdə rəqabət mühitinin də yaradılmasını göstərə bilərik. Məlumdur ki, kiçik olan müəssisələrin əhatəli şəbəkəsinin tərəqqisi get-gedə artmaqdadır. Müasir dövr zamanımızda ölkəmizin inkişaf edən iqtisadiyyatının qarşısında duran aşağıdakı göstərilmiş olan danılmaz və olduqca labüd vəzifə və öhdəliklərin həllinə çıxarar:

1) İri olan kapital qoyuluşu olmadan çox sayda istehlak tələb olunan mal və ya xidmətlərin geniş istehsalını əhəmiyyətli səviyyədə genişləndirmək;
2) Bazar tələbatının dəyişməsinə zamanında çevik olaraq uyğunlaşması, ölkənin xammal mənbələrindən və ya iri olan istehsal tullantılarından geniş səviyyədə istifadə edilməsi şəraitini yaxşılaşdırmaq;
3) Ölkəmizin bütün mövcud regionlarında yaşam şəraitinin daha da yaxşı1aşdırılmasına nai1 olmaq məqsədi1ə mal ya xidmətləri müştərilərə-istehlakçılara daha da yaxınlaşdırmaq;

4) Şəxsi istehlak üçün istifadə edilməsi nəzərdə tutulan maddi baxımlı və maliyyə olan vəsaitlərinin yığımının 1 hissəsini istehsal üzrə cəlb etmək;
5) Texnoloji və başqa xüsusiyyətlərinə dair iri olan istehsalda istifadə oluna bilməyən digər işçinin qüvvəsi resurslarını labüd istehsala cəlb eləmək və s.

Termin olaraq tədqiqat işimizdə istifadə etdiyimiz dayanıqlıq anlayışı latın mənşəlidir və bir çox ölkələrin iqtisadi ədəbiyyatlarında tədqiq olunmaqdadır. Qlobballaşan dünyada kiçik müəssisələrin maliyyə dayanıqlıqlarının möhkəmləndirilməsi üçün rəqabət şəraitinə davam gətirmək, bazarın nəbzini tutmaq, yüksək istehlak keyfiyyətlərinə malik məhsullar istehsal etmək, ixtisaslı kadrları cəlb etmək və müasir texnologiyadan istifadə həm vacib, həm də çətindir. Müəssisələrdə yeni xüsusi maliyyə alətlərinin istifadəsinin başlıca səbəbi maliyyənin dayanıqlığını qorumaq və bazar üçün olan təsərrüfat sistemində stabil olan yer qazanmaq qayğısıdır. Məlumdur ki, hər bir kiçik müəssisənin özününü maliyyəsinin resurslarını əsas fəaliyyət növlərinə uyğun olaraq və müəyyən olan zaman dilimində bölüşdürür və bölüşdürməlidir.
(http://www.lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=163)

Başqa iqtisadi kateqoriyalar kimi kiçik müəssisələrin maliyyəsi də işgüzar münasibətlərdən olan iqtisadi münasibətlərin ümumisidir. Bu iqtisadi münasibətlər kiçik müəssisələrin maliyyə dayanıqlığının təmininin əsasında durur. Deməli, kiçik müəssisələrin maliyyəsi - maliyyə üzrə olan münasibətlərin ümumi olaraq məcmusunu özündə ehtiva edir. Maliyyə münasibətlərinə aşağıdakıları misal göstərmək olar:

* Alqı satqı zamanı yaranan maliyyə münasibətləri; (bunlar satıcılar, alıcılar və s. təşkilatlar)
* Kiçik müəssisə və onun aktiv fəaliyyət göstərən işçiləri arasında yaranan maliyyə münasibətləri (əmək haqqı, mükafatı və s. ödənildikdə) ;
* Kiçik müəssisə ilə büdcə və büdcədən kənar da olan fondlara vergi və eyni zamanda sosial ödənişlərin köçürülməsi zamanı yaranan maliyyə münasibətləri;

* Kiçik müəssisə ilə kredit verən təşkilatların arasında yaranan maliyyə münasibətləri;

* Kiçik müəssisə ilə onun başında olan idarəsinin arsında yaranan maliyyə münasibətləri;

* Kiçik müəssisə ilə fond brjaları arasında səhm, istqraz və s. qiymətli kağızların alğı-satğısı ilə bağlı meydana gələn maliyyə üzrə münasibətləri. (Rəsullu R., 2015, s.244)

Müəssisənin yerinə yetirdiyi funksiyalar onun maliyyəsinin məzmununda təzahür edir. Maliyyə nəzəriyyəsinin əsasına nəzər saldıqda görərik ki, kiçik müəssisənin maliyyəsi 2 əsas funksiya, yəni, bölüşdürücü və nəzarət olaraq tanınan funksiyalarını həyata keçirir. Bölgü sayılan funksiya istehsal və istehlakın arasında əlaqələndirici bağ, həlqə rolundadır. Maddi olan istehsalda maliyyə vasitəsilə ümumi daxildə olan məhsul və milli gəlir üzrə bölüşdürülməsi baş verməkdədir. Kiçik müəssisə maliyyəsinin əsas funksiyalarından olan bölüşdürücü funksiyası vasitəsi ilə satışla daxil olan pulu (gəliri) başlıca xərc maddələrindən hesab edilən materiala çəkilmiş olan xərclərinin, əməyə görə ödənilən haqqının və s. ödənilməsinə və məcmu olan gəlirin yaranmasına istiqamətlənir. Hər kəsə məlumdur ki, əmək haqqının 1 hissəsi büdcəyə və büdcədən kənar da olan fondlara ödənilən vergilər və sosial ödənişlər arasında bölüşdürülür, əmək haqqının qalan hissəsi isə kiçik müəssisənin sərəncamına keçir və gələcək inkişaf üçün iqtisadi perspektiv gələcək istiqamətində həvəsləndirmək üçün olan fondların təşkilində iştirak edir.

Bu fikrə gəlirik ki, gəlirlərin və yığımın yaradılmasını, bölüşdürülməsini və istifadə olunması proseslərində meydana gələn pul üzrə münasibətlərinin ümumisini kiçik müəssisənin maliyyəsi özündə əks etdirir. Bir sözlə bu nəticəyə gələ bilər ki, kiçik müəssisənin maliyyəsinin bölüşdürücü funksiyasının vasitəsi ilə gəlirin və həmçinin yığımın bölüşdürülməsi nəticəsində bütün kiçik təsərrüfat subyektlərinin və dövlətin mənafeyi təmin olunur. Həmin funksiyalara əldə edilmiş olan gəlirin və yığılan yığımın bölüşdürülməsi prosesində kiçik müəssisənin maliyyəsinin öz iqtiqamətlənmiş fəaliyyətinin yerinə yetirilməsi başa düşülür.

Kiçik müəssisənin maliyyəsinin 2-ci labüd funksiyası olan nəzarətdir ki, bu da digər əsas funksiyalardan olan bölüşdürücü funksiya birbaşa sıx həm əlaqədardır, həm də bağlıdır. Nəzarət funksiyasının labüd olan obyektlərinə aşağıdakılar aiddir:

1. İstehsal edilmiş olan məhsulun istehsalı və onun həyata keçirilən satışının uçotu;
2. Əldə olunan gəlirlərin və yaranmış pul vəsaitləri fondlarının formalaşması.

Maliyyənin vasitəsi ilə kiçik müəssisələrdə qənaət rejimi gözlənilərək alınmış material ehtiyatları, əldə olunmuş pul və mövcud potensial əmək üzrə olan resurslarının istifadəsinin üzərində nəzarəti ciddi şəkildə aparılır. Nəzarətdə kiçik müəssisədə istehsal və bölgünün tətbiqinə imkan yaradır. O da təkcə istehlakın sferasında yox, həmçinin, kiçik müəssisələr üçün olan məhsul buraxılışında da səmərə baxımından olduqca əlverişlidir. Bu özünü son tələb olunan keyfiyyətli məhsulun istehsalına görə zəruri olan yarım-fabrikatların buraxılışında da göstərir. Bütün bu sadalananlar isə cəmiyyətin kiçik müəssisələrin rolu və yerinin nə qədər vacib olduğunu əsaslandırmağa imkan verir. (Niftullayev V., 2002, s.110)

Deməli, kiçik müəssisə maliyyəsinin bölüşdürücü funksiyası kiçik müəssisədə kiçik olan təsərrüfat fəaliyyətinin maliyyəsi arası heç kəsilmədən aparılmasına mühüm imkan yaradırsa, vacib olan funksiyalardan nəzarət funksiyası da kiçik müəssisənin fəaliyyətindəki pozuntuları vaxtında və düzgün formada aşkara çıxarıb və aradan qaldırılması naminə müvafiq tədbirlər görməyə imkan yaradır.

Kiçik kommersiya fəaliyyəti üzrə məşğul olan kiçik müəssisələrdə maliyyənin təşkili aşağıdakı prinsipləri vardır:

* Təsərrüfatın sahələri  üzrə sərbəstlik;
* Özünü vəsaitləri hesabına maliyyələşdirmə;
* Maddiyyata görə maraq;
* Maddi səbəblərdən məsuliyyət;
* Maliyyə ehtiyatlarının yenidən və yenidən yaradılması.

Bu gün kiçik müəssisələrin iqtisadiyyatı üçün dayanıqlığını qiymətləndirmək əsaslı qarşıya qoyulmuş məsələlərdəndir. Kiçik müəssisələrin maliyyə

dayanıqlığının inkişaf etdirilməsi üçün dayanıqlıq indikatorlarının mövcud olması hələ onun ölçülməsinin asanlığı mənasını daşımır. Çünki buna bir çox sosial-iqtisadi problemlər sistemli şəkildə təsir edir. Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığına nail olunması vasitəsilə mövcud olan iqtisadi resurslardan qənaətlə və səmərəli şəkildə istifadə etmək, dünya standartlarına uyğun, rəqabətə dözümlü məhsul və xidmət istehsala buraxmaq, iqtisadi fəallığı qismən də olsa artırmaq, son nəticə olaraq isə müəssisənin mənfəətini və bununla yanaşı dövlət büdcəsinin yığım payını genişləndirmək mümkündür.
(https://dergipark.org.tr/tr/pub/basbed/issue/38799/459394, 2017)

Bunu qeyd edək ki, kiçik 1 kiçik sahibkara və daxilində mövcud olan resurslara malik olan kiçik müəssisələrdə idarəetmə cüzi miqdarda çətinliklərin olmasına baxmayaraq, böyük tipli şirkətlərlə müqayisədə nisbətən də olsa daha asandır. Dünyanın tərəqqi istiqamətinə görə inkişafını etmiş və hələki inkişafda olan əlli dörd ölkəsində Dünya Bankının təcrübəli ekspertləri tərəfindən aparılan tədqiqat və təhlilləri onu bildirirlər ki, hələki inkişafını etməkdə olan ölkələrdə sahibkarlığın kiçik növünün dirçəlməsi səbəblərinin əsasında institusional faktorlar dayanır. Kiçik müəssisələrin inkişafı daxili imkanlarını səfərbər edərək dövlətin biznes mühitinin inkişaf istiqamətini dəstəkləyən tərəqqi yönümlü siyasəti ilə birbaşa bağlıdır. Həmçinin, bazar iqtisadiyyatının inkişafını əngəlləyən amilləri təhlil edərkən bir çox dünyanın ölkələrində olduğu üzrə ölkəmizdə də hüquq mexanizmlərindəki çatışmazlıqlarının olması və eyni zamanda  götürülmüş borcların və alınan mallara görə ödənişlərin vaxtında qaytarılması üzrə lazımi məhkəmə sisteminin olmaması kiçik sahibkarlığın maliyyə təminatında, bundan qaynaqlanan səbəblərdən dolayı maliyyə dayanıqlığında və nəticə etibarilə inkişafında özünə xas problemlər törədir. Kiçik müəssisə sahibləri olan kiçik sahibkarların iri istehsalla olan müqayisəsində səmərəli fəaliyyət göstərmək imkanlarına baxdıqda  bir sıra üstünlüklərə malik olduqlarını görə bilərik. Bunlar aşağıdakıları özündə ehtiva edir:

1) yerli olan bazarlara məsafə baxımdan yaxın yerləşmək;

2) istehlakçıların (müştərilərin) tələbatlarına maksimum səviyyə olaraq uyğunlaşma;

3) xırda hissələrlə məhsul istehsalı (hansı ki, bu iri firmalar üçün əlverişli deyildir);

4) idarəetmədə paralel istiqamətdə olan səviyyələrin ixtisar edilərək sıradan çıxarılması və s. (Atakişiyev R., 2013)

Dünyanın əksər ölkələrində iqtisadi fəaliyyətin əsas hissəsini kiçik sahibkarlıq subyektləri təşkil edir. Hətta keçid dövrünü yaşayan bir çox ölkələr öz iri tipli müəssisələri ilə tanınsalar da, hal-hazırda həmin dövlətlərdə fəaliyyət göstərən iqtisadi subyektlərin böyük əksəriyyəti kiçik müəssisələrdir. (http://iqtisadiislahat.org/store//media/2019/Iyul/other/DB_2020_AZE.pdf)

Kiçik müəssisələr məşğulluğun əsas təminatçısı qismində çıxış edir. Kiçik və sahibkarlığın qlobal trendlərindən biri də kiçik müəssisələrin dayanıqlılığını təmin etməkdir. Bu səbəbdən kiçik müəssisələrin dayanıqlıq və rəqabətqabiliyyətlilik göstəricilərinin yaxşılaşdırılmasına nail olmaq hədəflənir. (AR Strateji Yol Xəritəsi, 2016)

Kiçik müəssisələrin maliyyə dayanıqlığına nail olunması son dövrlərdə iqtisadiyyat elminin əsas tədqiqat məqsədlərindən biri olmuşdur. Bu gün dayanıqlı maliyyəyə malik olmaq iqtisadi cəhətdən stabil, müflisləşməyə və böyük maliyyə itkisinə yol verməyən, müəssisənin iqtisadi potensialının sabit artım tempini qoruyan, istehsal həcmini genişləndirən, xərcləri azaldaraq gəlirlərini artıran kiçik müəssisələr deməkdir.

Kiçik müəssisələrdə maliyyə dayanıqlığının təmin olunması yolları aşağıdakılardır:

- Kiçik müəssisənin fəaliyyətinin məqsədi müəyyənləşdirmək;
- İstehlak və istehsal bazarları haqqında məlumatlı olmaq;
- Effektiv iqtisadi artımın planlaşdırılmasnı aparmaq;
- Yeni texnoloji avadanlıqların müəssisə təşkilini təmin etmək;
- İxtisaslı kadrları müəssisəyə cəlb etmək;
- Potensial müştərilərin tələblərinə cavab vermək;
- Müəssisənin gələcəyi haqqında real proqnozlar verə bilmək. (Hacıyev Q., 2012, s.51)

Son illər sahibkarlıq istiqamətində fəaliyyət ilə məşğul olan kiçik müəssisələr maliyyə dayanıqlığının saxlanılması vəziyyətində bir çox problemli hallar ilə qarşılaşırlar. Bu problemləri ümumi olaraq iki yerə ayırsaq birincisi, ölkədə mövcud sosial-iqtisadi vəziyyət, ikincisi isə müəssisənin özünün iqtisadi cəhətdən zəifliyini qeyd etmək olar. Bugün kiçik müəssisələrin maliyyə dayanıqlığı məsələsində qarşılaşdığı bir çox ciddi problemlər vardır. Bunlara misal olaraq marketinq, maliyyələşmə mənbələri, elmi olmayan iş metodları, bu sahədə tədrisin əksikliyi, peşəkar menecerlərlə işləməyi maliyyə itkisi kimi qəbul etmək və s. məsələləri göstərə bilərik.

Kiçik müəssisələrin maliyyə dayanıqlığının möhkəmləndirilməsini analiz edərkən diqqət yetirilməsi ən vacib olan nüanslardan biri və birincisi də daxili kapitalın yetərsizliyidir. Müəssisə sahibləri kiçik məbləğlə fəaliyyətə başlayır və iqtisadi fəaliyyətini davam etdirdikcə kapital əldə edəcəyini düşünürlər. Kiçik sahibkarlar iqtisadiyyatın tsiklik dalğalanma dövrlərində məcburi şəkildə daxili kapitallarından istifadə etmək məcburiyyətində qalırlar. Qısa müddət ərzində əldə olan kiçik kapital bitdikdən sonra isə yüksək faizli bank kreditlərinə və ya başqa borc öhdəliklərinə müraciət edirlər. Kredit verən təşkilatlar adətən kiçik müəssisələrin ödəmə imkanlarındakı ləngimələri nəzərə alaraq ya kredit verməkdən imtina edir, ya da yüksək faizli və təminatlı şərtlərlə kreditlər təklif edirlər. Bu hallarda artıq maliyyə dayanıqlığı vəziyyətindən söhbət belə gedə bilməz. (Крылов С.И., 2016, с.95)

Kiçik sahibkarlığın iqtisadiyyatda ən böyük və əvəzedilməz rolu rəqabət mühitini möhkəmləndirməkdən ibarətdir. Bu sahəsinin ölkımizin iqtisadiyyatı üçün digər mühüm ərmağanı və vəzifəsi yeni iş sahələrinin-yerlərinin formalaşmasına mühüm şərait yaratmaqdır. Beləliklə, kiçik müəssisələr cüzi investisiya vasitəsi ilə daha da çox istehlak üçün olan istehsal, eyni zamanda məhsul çeşidliliyi əldə edə bilirlər. Həmçinin daha az çəkilmiş olan investisiyaya xərclər ilə yeni-yeni iş imkanlarını yaratmaq, dəyişikliklərə və müxtəlifliklərə daha rahat uyğunlaşmaq mümkündür. Ölkəmizdə məşğulluğun təmin olunması üçün kiçik müəssisələrin əvəz edilməz rolu var. Həmin sektor həm də böhran vəziyyətində və fors-major halında

əsas müdafiə edən üsullarından və biri birincisidi. Bu səbəbdən, dönəmdə iri müəssisələrin müflisləşməsi kiçik müəssisələrə nəzərən ölkəmizin iqtisadiyyatındakı böhranı getdikcə daha da dərinləşdirir. Ancaq kiçik olan müəssisələrdə belə risklər daha aşağıdır. Mütəxəssislərin fikirlərini təhlil etdikdə belə nəticəyə gəlinir ki, iri olan şirkətlər ölkəmizdədə elm ilə texniki tərəqqinin və istehsalın potensialının səviyyəsi ölçüsünü müəyyən edir, lakin kiçik sahibkarlıq müəssisələri isə ölkəmizin sosial-iqtisadi cəhətdən sabitlikvə stabilliyini, eyni zamanda onların inkişafını və tərəqqisini təmin edir. Belə müəssisələrin çoxluq təşkil etməsi iqtisadiyyatda dayanıqlığı formalaşdırır.
(https://storybuilder.jumpstart.ge/en/azrbaycanda-kicik-v-orta-biznesin-inkisafi-niy-lngiyir)

Bundan başqa maliyyə dayanıqlığı baxımından problemli olan kiçik müəssisə sahiblərinin əksəriyyətinin iqtisadi cəhətdən məlumatsızlığından və bu sahədə ixtisaslı peşəkar kadrları cəlb etmədiklərindən müəssisə olaraq geriləmə yaşayırlar. İstehsalda texniki nailiyyətlərin son onilliklər ərzində güclənməsi iri partiyalı məhsul istehsalının üstünlüyünü aşağı salmışdır. Kiçik müəssisələrdə təşəbbüskarlıq və risklərə meyllilik qabiliyyəti digər müəssisələrlə müqayisədə daha güclü olur. Bu tipdən olan müəssisələr texnoloji yenilikləri tez mənimsəyir və onlarda xərclərin ödənilməsi qabiliyyəti də daha yüksək olur. Nəticədə isə kiçik müəssisələrin güclü təsərrüfat motivləşməsi yaranır. Rəqabət apara bilən yerli kiçik təsərrüfat subyektlərinin ilk növbədə kiçik müəssisələrin müəssisələrin yaradılması da mümkündür. (Niftullayev V., 2002, s.70)

Müəyyən zaman aralıqlarında minimum əmək haqqının artırılması nəticəsində kiçik müəssisələrdə müşahidə olunan hallardan biri də şərti olaraq rəqəmləri götürsək 8 nəfər işçidən 4 nəfərinin işdən azad olunması halı baş vermişdir. Buna səbəb odur ki, müəssisə əməkhaqqı fondu üçün ilin əvvəlinə müəyyən bir məbləğdə vəsaiti nəzərdə tutaraq ayırmışdır. İlin sonlarına yaxın minimum əmək haqqının artması isə artıq kiçik müəssisənin dayanıqlıq indikatorlarına uyğun olmadığı üçün işçiləri işdən azad etmişdir. Nisbətən daha kiçik təşkilatlar işçilərin daha aşağı əməkhaqqı və təzminat təminatı ilə bağlı böyük təşkilatlarla müqayisədə daha çox problemlə üzləşməli olurlar. Bu cür problemləri

nəzərdə saxladıqda qarşılaşılan problemlər səbəbindən kiçik müəssisələr üçün daha vacibi özünün işçi resurslarının tələblərinin planlaşdırılmasını aparmaqdır (bu risklər arasında işçilərin imtiyazlarının tükənməsini vurğulamaq məqsədə uyğundur). Digər rəqib şirkətlərin hesabına işçi itirmək xərclərinin hesablanmasını effektiv vasitə kimi nəzərdə saxlamaq üçün təşkilat müvafiq təzminat dərəcələrinin müəyyən etməlidir. Bundan əlavə qanunvericiliyə nəzər saldıqda görərik ki, kiçik müəssisələr təkcə, bütün növdən olan müəssisələr öz işçiləri üçün təhlükəsiz və etibarlı əmək şəraiti təmin etməyə borcludurlar. İşçilərə dəyən zərərə, sağlamlığını və əmək qabiliyyətini itirilməsinə görə qanunvericilik əsasında məsuliyyət daşıyırlar. Kiçik müəssisələrin işçiləri sığortanın əsas növlərindən olan və onların yaşamları üçün olduqca mühüm əhəmiyyətlilik kəsb edən istər sosial, istərsə də tibbi növlərinə cəlb edilirlər və bütün növ sosial təminat hüququna malikdirlər. Bu baxımdan son dövrlər üçün aktual mövzu olan müəssisələrdə əmək haqqlarından tutulacaq tibbi sığorta üzrə ödənişlər (yaxın gələcək tarixlər üçün nəzərdə tutulmuşdur) müəssisələrdə əmək haqqı fondlarına yenidən baxılmasına və uçot siyasətində dəyişikliklərin edilməsinə əsas verir.
(http://www.audit.gov.az/uploads/Kicik%20ve%20orta%20Telimat.pdf)

Kiçik müəssisələrdə xərclərə nəzarət siyasətinin təkmilləşdirilməsi vacib məqsədlərdən olmalıdır. İqtisadi böhran zamanı dayanıqlığın saxlanması üçün xərclər nəzarət altında saxlanılmalı, müəssisənin iqtisadi faydalılığında heç bir əhəmiyyəti olmayan lazımsız xərclərdən qaçınılmalı, əlverişli xərclər üzrə təsnifatlaşdırma aparılaraq uçot siyasətinin ən vacib xərc maddəsi sayılan maya dəyəri maddələri təhlil edilməlidir.

Kiçik müəssisələrin sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı uzunmüddətli planlaşdırma və marketinq nəzərdə tutulmur. Bu müəssisələrdə planlama əsasən sahibkar və ortaqlar tərəfindən reallaşdırılır. Həmin zaman planlama əsas statistik metodları ilə deyil, ehtimallara və intuisiyaya əsaslanan planlama həyata keçirilir. Bu səbəblərdən dolayı hansısa iqtisadi problemin mövcudluğu zamanı düzəlişlər mümkün olmur. Planlama dedikdə aşağıdakılar nəzərdə tutulur:

- məqsəd;
- adekvat təhlil;
- alternativ planların hazırlanması;
- alternativ planların qeyri-kafi müqayisəsi. (Uludağ İ., Serin V., 2014, s.31)

Beynəlxalq bazarların kifayət qədər araşdırılmaması və təşviq edilməməsi, eyni zamanda istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin xarici bazarlara nəzərən istər standart, istərsə də keyfiyyət baxımından geri qalması kiçik müəssissələrin fəaliyyət dairəsini kiçiltdiyi üçün maliyyə dayanıqlığı baxımından da genişlənməsində əngəllər yaradır. Daxili bazarda maliyyə sabitliyi hələ tam yetkinləşməmiş olan kiçik müəssisələr üçün xarici bazara çıxma addımlarının uğursuzluqla nəticələnmə ehtimalları da olduqca böyükdür.

Dünya təcrübələrinə nəzər yetirsək görərik ki, ölçü və fəaliyyət baxımından kiçik müəssisələrin səmərəli fəaliyyətinin təmin edilməsi vacibdir və həmin şəraitdə istehsal olunan tələb olunmuş məhsul və müştərilərin arzularına uyğun xidmətlərin deyə bilərik ki, bir çox payı elə  həmin sahənin də payına düşür. Eyni zamanda da kiçik müəssisələrin bazarının konyukturunun dəyişikliklərinə çevik olaraq reaksiya vermələrinə səbəb kimi onların əhalinin tələbatına daha həssas və daha çox elastik olmaları, istehlak və istehsal sferalarındakı müvafiq boşluqları daha canlı və səmərəli şəkildə doldura bilmələridir. Bundan əlavə kiçik sahibkarlıq ölkədə həyata keçirilən islahatların dəstəklənməsinin sosial bazasını genişləndirməklə zəruri sabitliyi təmin edir. Bundan əlavə kiçik sahibkarlığın inkişafında beynəlxalq standartlara uyğun fəaliyyətlərin mövcudluğundan istifadə edərək daha böyük investisiya mənbələrinin tapılması, xarici maliyyə qurumlarının əməkdaşlığa cəlb olunmaları mümkündür. Çünki xarici tərəfdaşlarla əlaqələrin güclü olması da kiçik sahibkarlığın inkşafında ciddi inkişafa doğru dəyişikliklər  yaradır.

Kiçik müəssisələrdə maliyyə dayanıqlığına nail olunması üçün əsas amillər davamlı inkişaf, korporativ sosial məsuliyyət, sahibkarların nəzəriyyəsi və hesabatlılıq nəzəriyyəsidir. Onu da bildirmək labüddür ki, ölçü və fəaliyyət cəhətdən kiçik müəssisələrin yaradılması və iqtisadi baximdan inkişafı eyni zamanda

müştərilər tərəfindən tələb olunan əmtəə və xidmətlər bazarını əhatə etməsinə, ixrac potensialının yüksəldilməsinə, yerli olan xammal və ehtiyatlarından səmərəli olaraq istifadə edilməsinə aparan magistral yol hesab edilir.

Dünyaya əsaslanan təcrübəyə əsaslandıqda göstərir ki, kiçik müəssisələr qlobal və həmçinin ölkəmizin iqtisadiyyatında olduqca çox mühüm əhəmiyyətlilik ehtiva edir. Son olan bir neçə i1də Qərbi Avropa, Amerika Bir1əşmiş Ştatları (ABŞ) və Yaponiyada çoxsay1ı kiçik və orta müəssisələr top1usu yaranmaqla kiçik biznes çox böyük vüsət almışdır. Bu adı çəkilən müəssisələr toplusunda 20 nəfərədək işçisi olan kiçik müəssisələr daha da çox vacib xüsusi çəkiyə sahib olmasına baxmayaraq, bu göstərici ölkəmizdə minimum 10 nəfər işçini nəzərdə tutur. Sosial-iqtisadi iqtisadiyyatda kiçik müəssisələrin inkişafı bir çox problemlərin həlli ilə yanaşı yeni iş yerlərinin artırılmasında da müvafiq lazımlılığını təmin edir. Bu isə ölkədə işsizliyin ixtisar edilməsinə imkan verir. (Niftullayev V., 2002, s.110)

Hazırda ölkəmizdə qarşıya qoyulmuş mühüm vəzifə neft olmayan sektorun tərəqqisi üçün iqtisadiyyatın şaxələndirilməsidir. Ölkənin sosial-iqtisadi mövcud potensialının gücləndirilməsi naminə neft olmayan sektorunun tərəqqisi və inkişafı olduqca əhəmiyyətlidir. Son nəticəsi olaraq keçən illər uğurla bu sahədə görülən tədbirlər neft olmayan sektorunun və həmin sektorun əlaqəli olduğu sahələrin davamlı inkişafına, kiçik sahibkarlığın olduğu mühitin daha da mükəmməl formada yaxşılaşdırılmasına, investisiya qoyuluşunda artıma, yeni kiçik olan müəssisələrin və yeni iş üçün yerlərin açılmasına təkan vermişdir.

Bazar iqtisadiyyatına keçidin şəraitində cəmiyyətin yeni və yeniləşməsində kəsb edən rola görə ölçü və fəaliyyət baxımından kiçik müəssisələrin xüsusi müdafiəyə ehtiyacı var. Cəmiyyətimizin sosial və iqtisadi baxımdan yeniləşməsində kiçik sahibkarlıq bölməsinin struktur bölmələrinin yaradılması və inkişaf etdirilməsi çox mühüm amildir. Dövlət kiçik müəssisələri iqtisadi cəhətdən qorumaqla orta olan sinifin formalaşması naminə şərait vermiş olur. Həmçinin, büdcə vəsaitinin tamamlanmasının səmərəli forması kimi kiçik biznesin fəaliyyət dairəsinin genişləndirilməsi nəzərdə saxlanılmışdır.

Qeyd etmək labüddür ki, iqtisadiyyatın yenidən və yenidən qurulmasının vacibliyi obyektiv istiqamətdə ona tərəf aparır ki, ölkədə yaşayışı olan vətəndaşlarının çox böyük bir hissəsi kiçik sahibkarlıq subyektlərindən olan kiçik müəssisələrdə fəaliyyət göstərirlər. Belə şəraitdə dövlətin kiçik müəssisələri eyni zamanda məqsədə istiqamətlənmiş formada müdafiəni etməsi lazım və labüddür. Kiçik müəssisənin bazar münasibətlərinə uyğunlaşdırılması onların istehsal quruluşlarından asılı olmur. Yeni iqtisadi sistemə keçidin tətbiqindən dolayı sosial-iqtisadi proseslərin mahiyyətcə dəyişilməsi tələb edilə bilər. (Hüseynov T., 2009, s.43)

Sosial-iqtisadi istiqamətli maliyyəsi olan sisteminin vacib tərkibini və maddi bazasını kiçik müəssisələrin maliyyə dayanıqlığının təşkil etdiyi artıq məlum məsələdir. Bazar iqtisadiyyatı kiçik müəssisələrin maliyyəsinin olduqca möhkəm və sabit templi olmasını mütləq şəkildə tələb edir. Buna görə ki, elmə əsaslanaraq iqtisadiyytada istehsalın səmərəliyinin şəffaf yüksəldilməsi ancaq özü-özünü maliyyələşdirməsinin əsasında mümkün ola bilər. (Aracı H. ve Yüksel F., 2016, s.55)

Kommersiya fəaliyyəti göstərən bütün kiçik müəssisələr kiçik təsərrüfat və onların maliyyə sferalarındakı real sərbəstliyə malikdirlər. Kiçik müəssisələrin bazar dəyəri qoyulan investisiyalarının həcmi ilə yanaşı maliyyənin və mənfəətinin bölgüsü qərarlarından asılı olan istiqamətdə dəyişə bilər. Kiçik müəssisə müxtəlif sahələr üzrə istiqamətlərə qoyduğu investisiyalarının həcmini artırdıqda, balansın qaydalarına əsasən, onda paralel olaraq borclarla xüsusi kapitalın nisbəti də ona uyğun artacaqdır. Digər bir tərəfdən kiçik müəssisələrin fəaliyyətlərinin də səmərəliliyi və məhsuldarlığı təmin edilərsə, real-potensial gəlirləri də xeyli artmış olacaqdır.

Bu səbəbdən dolayı da kiçik müəssisələr öz kiçik olan fəaliyyət sahəsini daha da dolğun şəkildə böyütmək məqsədinə görə yeni fəaliyyət sahələrinə investisiyalar qoymalı və onların həcmini də müntəzəm olaraq artırmalıdırlar. İnvestisiya artımının mənfi cəhəti isə öz növbəsində uzun müddətli olan fondlara tələbatı artırması səbəbindən, əldə etdiyi mənfəət paylarını - dividendlərini ortaqlarına ödənişini etməmək, yaxud da məsələn, kənar istiqamətdən borc almaq haqqında

düşünür. Şübhəsiz, müəssisənin borclanma səviyyəsi xüsusi kapitalın həcmindən asılı olaraq dəyişəcəkdir.

Kiçik müəssisənin bazar dəyərinin müəyyənləşdirilməsində mənfəətinin bölgüsünün əhəmiyyəti də danılmazdır. Ortaqlara ödəyəcəyi mənfəət üzrə olan payının illərə nəzərən artımı onun bazara görə dəyərini də həmçinin ona uyğun artıracaqdır.

Bu bölgünün sahəsi üzrə tətbiq olunan öncül strateji qərarların təhlili aşağıdakı kimidir:

- Sabit miqdarda olan mənfəət bölgüsünün siyasəti.

Kiçik müəssisənin gəlirləri hər il üzrə artıb və ya azalma olaraq müşayiət olunmasına baxmayaraq, ortaqlarına sabit miqdarda pay verməkdədir.

- Sabit nisbətdə olan mənfəət bölgüsünün siyasəti:

Kiçik müəssisə rəhbərliyi ilin sonlarına görə əldə etdiyi mənfəətə əsasən sadəcə müəyyən 1 hissəsini (faizini) ortaqlara paylamaqdadır.

- Sabit miqdara əlavə olaraq həm də müəyyən olan 1 miqdarının da ödənilməsi siyasəti:

Kiçik müəssisənin rəhbərliyi ümumi mənfəətdən ortaqlarına verə biləcəyi minimum olan həddi müəyyənləşdirir və həmçinin əlavə də olaraq mənfəətinin artımlarından da bır miqdar pay (hissə) ödənilir. (Ataşov B., İbrahimov E., Novruzov N., 2009, s.152)

Müəssisənin rəhbərliyinin bu istiqamətdə qəbul edəcəyi hər hansısa bir qərar, mümkün qədər kiçik müəssisənin bazarda olan dəyərinə və yaxud səhmlərinin satış qiymətinə qəti bir şəkildə təsir göstərməməlidir. Maliyyə dayanıqlığına nail olunmaqla kiçik müəssisələrin həm iqtisadi siyasətinin düzgün tənzimlənməsində, həm də onun balansının əsas maddələri sayılan gəlir və xərclərinin müəyyən olunmasında mühüm əhəmiyyətlilik kəsb edir. Kiçik müəssisələrin iqtisadi olan funksiyalarının yerinə yetirilməsində maliyyə olan münasibətlərinin olduqca əvəzedilməz yeri olduğundan üçün iqtisadi və sosial tədbirlərin həyata keçirilməsində elə məhz maliyyə kimi münasibətlərindən böyük formada istifadə olunur, maliyyə alətləri vasitəsi ilə təsir edilir və qarşıya qoyulan maliyyənin

dayanıqlığının təmin edilməsi bu funksiyalar hesabına həyata keçirilir. Bütün bunlar kiçik müəssisələrin maliyyə dayanıqlıq göstəriciləri vasitəsilə təmin edilir. Müəssisələr iqtisadi siyasət vasitəsilə bazarda tələbata uyğun mal və xidmətləri analiz edərək istehsal edirlər. Bu strateji maliyyə konsepsiyalarına maliyyə resurslarının (uzun və qısamüddətli) səfərbər edilməsi, o cümlədən, maliyyənin iqtisadi planlaşdırılması daxil edilir. Maliyyənin konsepsiyalarına uyğun olaraq səfərbər olunmuş maliyyə resurslarının səmərəli istifadəsi həyata keçirilir. (Hüseynov X. Ə., Novruzov .N. A., 2007, s.187)

Müəssisələrdə maliyyə dayanıqlığının təmini edilməsi maliyyənin mexanizmi ilə həyata keçməsi səbəbindən maliyyənin mexanizminin baçlıca mahiyyəti, maliyyənin yaxşı idarə olunması sistemi və bu sistemə aid olan hər bir element ayrılıqda təhlil olunaraq öyrənilməsi, maliyyənin metodu, maliyyənin alətlərini mütləq və aydın şəkildə araşdırılması labüddür. Təhlil zamanı kiçik müəssisələrin maliyyə dayanıqlığını dərindən analiz etdiyimizdən məlum olur ki, o özündə maliyyə münasibətlərinin formalarını, pul vəsaitləri fondlarının formalaşmasını və istifadəsi qaydalarını, maliyyə planlaşmasının metodlarını, maliyyənin idarə edilməsinin formaları ilə maliyyə üzrə qanunvericiliyini özündə ehtiva edir.

Maliyyənin iqtisadiyyatın bir sahəsi olaraq planlaşdırılması maliyyə üzrə mexanizmin vacib tərkib hissəsidir. Kiçik müəssisələrdə maliyyə siyasətinin həyata keçirilməsində maliyyənin vacib mexanizminin yeri böyükdür. Mexanizm olaraq maliyyə onun siyasətinin struktur hissəsidir və o əksər amilləri özündə əks etdirir. Buna misal olaraq kiçik müəssisələrin iqtisadi münasibətlərin əsasını təşkil edən maliyyə sferasında mövcudluq təşkil edən resurslarının toplanması və eyni zamanda onların istifadəsinin forma və metodlarını göstərə bilərik. Maliyyə resurslarının maliyyə siyasəti kiçik müəssisələrin qarşısında dayanan iqtisadi-sosial vəzifələrin həyata keçirilməsində onun prioritetlərindən biri və birincisi də maliyyə resurslarından səmərəli istifadə edərək maliyyə dayanıqlığının qorunmasıdır. Unutmayaq ki, maliyyənin əhatə olunduğu münasibətlərin sistemi maliyyə mexanizmidir. Bura maliyyə resursları ilə əlaqəli olan proseslərin qanunvericilik ilə tənzimlənən və normativ aktlarının sistemi də daxildir. Bu sistemdə kiçik

müəssisələrin gəlirlərinin və xərclərinin müəyyənləşdirilməsi, istehlak tələblərinə cavab verən yeni məhsulların və xidmətlərin istehsalı, bazarın idarə olunması üçün rəqiblər arasında liderlik təmin edilir. Maliyyə mexanizmi maliyyənin planlaşmasının və idarə olunmanın yerinə yetirilməsini də həmçinin özündə ehtiva etdirir. (Гребенщикова Е.В., Ефимова О.В., 2016, с.157)

Digər ölkələrin təcrübələrinə nəzər fikir versək görərik ki, ölçü və fəaliyyə baxımından kiçik biznesin səmərəli olan göstərdiyi fəaliyyətinin təmin olunduğu şəraitdə istehlak üçün istehsal edilmiş məhsul və müştərilərə göstərilən xidmətlərin yarısından çoxu, statistik rəqəmlər olmadıqda belə bu sahənin payına düşür. Ümumiyyətlə, istehsal və istehsal əsasında olan istehlak sferalarındakı müvafiq yaranmış boşluqları kiçik biznes subyektləri daha doğlun, həmçinin səmərəli olan formada doldura bilirlər. Buna səbəb əhalinin tələbatına daha həssas olmaqları, bazar konyukturunun dəyişikliklərinə çevik, cəld reaksiya verməkləridir. Hər kəsə bəllidir ki, səmərə ilə fəaliyyətdə olan güclü kiçik sahibkarlıq institutunun formalaşması və inkişaf etdirilməsi uzunmüddətli proses olmaqla, həm dövlətimizin biznes və əsas faktor olan cəmiyyətlə əməkdaşlığının səmərəli olmasından, həm də bütün növ dövlət tərəfindən müəyyən edilən mühitlərin əlverişli olmasından birbaşa asılıdır. (Gülməmmədov V., 2017, s.164-165)

Bütün bu qeyd edilənlər ölkədə sosial-iqtisadi problemlərin həllində əvəzsiz rol oynayaraq, kiçik müəssisələrin maliyyə dayanıqlığının artırılmasının, habelə onun əhəmiyyətliyinin daha yaxşı izahı üçün müasir vəziyyətinin statistik tədqiqinin zərurətini meydana çıxarır.

## 1.2 Kiçik müəssisələrin maliyyə dayanıqlığının təhlili və qiymətləndirilməsi metodları

Maliyyə dayanıqlığı anlayışı ötən əsrin sonlarına doğru ictimaiyyətin maraq obyektinə çevrilməyə başladı. Dayanıqlığı qiymətləndirmək və onu ölçülə bilən indikatorlarla göstərmək üçün kiçik müəssisələrdə baş verən iqtisadi proseslərin mümkün nəticələrini və hərəkət dinamikasını iqtisadi faktlar əsasında izləmək lazımdır. Dünya ölkələri, eləcə də Azərbaycan iqtisadiyyatında başlıca hədəf iqtisadi artıma, inflyasiya riskinin aşağı salınmasına, sabit məşğulluq səviyyəsinə və son nəticə olaraq dövlət maliyyəsinə nail olmaqdır.

Müəssisələrin ma1iyyə potensia1ı ilə borc prob1eminin qarşılıqlı əlaqə1əri, maliyyə resusrlarının formalaşması üsulları, maliyyə dayanıqlığının təmin edilməsi zamanı əldə olunan mənfəətin və onun inkişaf startegiyası iqtisad elmi tərəfindən müxtəlif formalarda tədqiq olunmuşdur.

İqtisadçı alimlərə görə maddi dövriyyədə olan aktivlərin dəyəri ilə özünün və borc götürülmüş mənbələrin dəyərləri arasındakı nisbət, kiçik müəssisənin maliyyə dayanıqlığını xarakterizə edir. Onların fikirlərinə əsasən deyə bilərik ki, iqtisadi və sosial dayanıqlığın əsas bünövrəsini kiçik təsərrüfat subyektlərinin istehsal ehtiyacları ilə şərtlənən zəruri istehsalın amillərinin həcminin təmin edilməsi, həmçinin onların formalaşmasının mənbələri təşkil edir. (Шеремет А.Д., Негашев Е.В., 2001, с.55)

Azərbaycan Respublikasının əməkdar iqtisadçısı, iqtisad üzrə elmlər doktoru (i.e.d.), professor Telman Hüseynovun apardığı tədqiqatların nəticəsi olaraq mənfəətin yanlız müəssisənin kommersiya fəaliyyətinin nəticələrindən deyil, eləcə də məhsulun maya dəyərindən, satış qiymətindən, məhsul satışının həcmindən, material ehtiyatlarının bazar qiymətindən və məhsulun keyfiyyətindən asılıdır. Bu səbəbdən, mənfəəti əmələ gətirən amillərin müəyyən edilərək qiymətləndirilməsi bu sahədə iqtisadi təhlilin müasir metodikasının hazırlanması nəzəri və təcrübəvi əhəmiyyətə malikdir. Bu da ki, öz növbəsində bazarın vəziyyəti nəzərə alınması üçün mənfəətliliyin dərindən və kompleksli təhlilini tələb edir. Müəssisənin maliyyə

vəziyyətnin təhlilinin prosedur tərəfinin detallaşdırılması təhlilin məqsədindən, eləcə də informasiya, vaxt, kadr və texniki xarakterli müxtəlif amillərdən asılıdır.

Həmçinin, i.e.d. Bəxtiyar İsmayılovun da araşdırmaları onu göstərir ki, müəssisə daxili bazarda və rəqabət mübarizəsində öz mövqeyini qoruyub saxlamaq və dayanıqlı inkişaf əldə etmək üçün elmi nailiyyətlərin istehsala mütəmadi olaraq tətbiqinə nail olmalıdır. Təcrübə göstərir ki, bu mühüm aspektə az diqqət yetirən müəssisələr qısa müddət ərzində daxili bazarda öz mövqeyini itirirlər. Bildiyimiz üzrə, bu sahədə mövcud olan ədəbiyyatlarda meyarların qiymətləndirilməsi üçün müxtəlif yanaşmaların metodoloji aspektləri açıqlanmaqdadır. Bu da kiçik müəssisələrin maliyyə idarəedilməsinin problemlərinə həsr edilmişdir. Onların içərisində ekspert və layihə qiymətləndirilməsinə üstünlük verilir. Bu yanaşma bəzən müəssisənin mövcud və perspektiv reallıqlarını tam açıqlamır. Göstərilən səbəblərdən dolayı, meyarların qiymətləndirilməsinə elmi yanaşmaların şamil edilməsi üçün kiçik müəssisənin dayanıqlı inkişafını təmin etməklə yanaşı, daha təsirli tövsiyələri işləyib hazırlamaq həm lazım və həm də labüddür.

Kiçik müəssisənin fəaliyyəti üzrə maliyyə-iqtisadi təhlilinin əsas komponetləri mühasibat balasnının üfüqi təhlil, şaquli təhlil və trend təhlili, eyni zamanda maliyyə üzrə əmsallarının hesablanmasıdır. Mütləq göstəricilərin öyrənilməsi dedikdə mühasibat hesabatlarının təhlili əsasında kiçik müəssisənin əmlakı üzrə tərkibini, maliyyə üzrə vəziyyətini, xüsusilə vəsaitlərinin formalaşması üzrə mənbələrini, borc vəsaitinin də həcmini, məshul satışından əldə olunan vəsaitin qiymətləndirilməsi üçün müəyyən etməkdir. Hesablamalar əsasında yaranan bu hesabatların fakt üzrə göstəriciləri kiçik müəssisələrin planlaşdırdığı və gələcəkdə çatmaq arzusunda olduğu göstəricilər ilə müqayisə edilir.
(http://muhaz.org/maliyye-siyasetinin-mahiyyeti-ve-prinsipleri.html, 2018)

Ümumiyyətlə, bir müəssisənin reallaşdırdığı iqtisadi siyasət gələcək öhdəliklərinin ödənilməsi yeni öhdəliklərin yaranmasına və maliyyə balansında xərclərin artmasına səbəb olmursa, bu həmin müəssisənin maliyyəsinin davamlı olduğunun göstəricisidir. Maliyyə dayanıqlığının tərifi əksər hallarda müəssisənin gəlirləri və xərcləri ilə, yəni, mənfəət və zərərlə əlaqələndirilir.

Maliyyə planlamasının öz obyektinin öyrənilməsinə istiqamətlənmiş metodları mövcuddur və bu maliyyə planının hazırlanması müxtəlif metodlarla həyata keçirilir. Bunlardan isə əmsal üzrə metodları, norma üzrə metodları və həmçinin balans üzrə metodları göstərə bilərik. Maliyyə əmsallarının müəyyən edilməsi nəticəsində qarşıya çıxan maliyyə riskləri təhlil olunub aradan qaldırıla bilər. Dayanıqlığa nail olunması üçün müəssisənin maliyyə vəziyyətinin nisbi göstəriciləri olan maliyyə əmsallarını təhlil etmək zəruridir. Bu əmsallar mütləq göstəricilərin və yaxud onların kompleksinin nisbəti kimi hesablanırlar. Maliyyyə əmsallarının təhlili onların dövrlər (hesabat və bazis) üzrə qiymətlərinin müqayisəsi ilə aparılır.

Kiçik müəssisələrin maliyyə dayanıqlığını qiymətləndirmək üçün həddən çox göstəricilər var. Lakin bunlardan bəziləri olduqca əhəmiyyətli və qeyd olunması mütləqdir. Maliyyə əmsalları sistemi iqtisadi mənasına görə aşağıdakı qruplara bölünürlər:

1. Müəssisənin rentabellik göstəriciləri;
2. İdarəetmənin səmərəliliyinin və ya məhsulun mənfəətliliyinin qiymətləndirilməsi göstəriciləri;
3. İşgüzarlıq fəallığının və ya kaptial veriminin qiymətləndirilməsi göstəriciləri;
4. Müəssisənin bazar dayanıqlığının qiymətləndirilməsi göstəriciləri;
5. Ödəməqabiliyyətliliyin əsası kimi balans aktivinin likvidliyinin qiymətləndirilməsi göstəriciləri.

Müəssisənin rentabelliyinin qiymətləndirilməsi:

1. Müəssisənin ümumi rentabelliyi:

$$\rho_{um} = \frac{M_{um}}{I_{or}} \cdot 100\%$$

$M_{um}$- ümumi mənfəət,

$I_{or}$ - müəssisənin əmlakının orta qiyməti.

2. Müəssisənin xalis rentabelliyi:

$$\rho_x = \frac{M_x}{I_{or}} \cdot 100\%$$

burada $M_x$ - müəssisənin xalis mənfəəti.-vergini cixdiqdan sonra

1. Xüsusi kapitalın xalis rentabeliyi

$$\rho_{xk} = \frac{M_x}{I_{xk}} \cdot 100\%$$

burada $I_{xk}$ - müəssisənin xüsusi kapitalının orta qiyməti.

İstehsal fondlarının ümumi rentabelliyi:

$$\rho_{if} = \frac{M_{um}}{I_{um}} \cdot 100\%$$

burada, $I_{um}$ - əsas istehsal və maddi dövriyyə aktivlərinin orta dəyəri.

İdarəetmənin səmərəliliyinin qiymətləndirilməsi:

1. Dövriyyənin hər manatına xalis mənfəət:

$$\mu_d = \frac{M_x}{N} \cdot 100\ \%$$

burada $N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində).

2. Reallaşdırılmış məhsulun 1 manatına düşən mənfəət:

$$\mu_r = \frac{M_r}{N} \cdot 100\ \%$$

burada $M_r$ - məhsulun reallaşdırılmasından əldə edilən mənfəət.

3. Dövriyyənin bir manatına bütün realizasiyadan əldə edilən mənfəət miqdarı:

$$\mu_D = \frac{M_{ur}}{N} \cdot 100\ \%$$

burada $M_{ur}$ - bütün realizasiyadan əldə edilən mənfəət.

4. Dövriyyənin bir manatına düşən ümumi mənfəət miqdarı:

$$\mu_{um} = \frac{M_{um}}{N} \cdot 100\ \%$$

İdarəetmənin səmərəliliyinin qiymətləndirilməsi göstəricilərinə diqqət yetirsək, görərik ki, onlar yalnız kəsrin surətləri ilə fərqlənirlər və bu surətdəki göstəricilər iqtisadi fəaliyyətin müəyyən maliyyə nəticələrini əks etdirirlər.

İşgüzarlıq fəallığının qiymətləndirilməsi göstəriciləri:

1. Ümumi kapital verimi (fondverimi):

$$\phi_{um} = \frac{N}{I_{or}} \cdot 100\%$$

2. Əsas istehsal vəsaitlərinin və qeyri-maddi aktivlərin verimi:

$$\phi_a = \frac{N}{I_n} \cdot 100\%$$

burada $I_n$ - əsas istehsal vəsaitlərinin və qeyri-maddi aktivlərin orta dəyəri.

3. Bütün dövriyyə aktivlərinin dövretməsi

$$d_a = \frac{N}{I_a}$$

$I_a$ - dövriyyə aktivlərinin orta qiyməti.

4. Ehtiyatların dövretməsi

$$d_{eh} = \frac{N}{I_{eh}}$$

burada $I_{eh}$ - ehtiyatların orta dəyəri.

5. Debitor borcların dövretməsi:

$$d_{db} = \frac{N}{I_{db}}$$

$I_{db}$ - debitor borcların orta dəyəri

6. Bank aktivlərinin dövretməsi:

$$d_b = \frac{N}{I_b}$$

$I_b$ - sərbəst pul vəsaitlərinin və qiymətli kagızların orta kəmiyyəti.

7. Xüsusi kapitala dövriyyə

$$d_x = \frac{N}{I_{xk}}$$

Bazar dayanıqlığının qiymətləndirilməsi göstəriciləri:

1. Maliyyə müstəqillliyi əmsalı:

$$k_m = \frac{V_x}{W} \geq 0,5$$

Bu məhdudiyyət onu göstərir ki, müəssisənin bütün öhdəlikləri onun öz vəsaitləri ilə ödənilə bilər. Bu məhdudiyyətin qorunması həm müəssisənin özü üçün, həm də onun kreditorları üçün çox əhəmiyyətlidir. Müstəqillik əmsalının artımı gələcəkdə maliyyə çətinliklərinin yaranması risklərinin azalması və müəssisənin maliyyə müstəqilliyinin artmasına dəlalət edir.

2. Xüsusi və borc vəsaitlərin nisbəti əmsalı:

$$k_{xb} = \frac{W - V_x}{V_x}$$

$W - V_x$ - müəssisənin bütün öhdəliklərinin miqdarı,

$V_x$ - xüsui vəsaitlərin mənbələri,

$W$ - balansın ümumi məbləği.

Bu iki əmsalın qarşılıqlı əlaqəsi aşağıdakı kimi ifadə oluna bilər:

$$k_{xb} = \frac{1}{k_m} - 1$$

Bu bərabərlikdən borc və xüsusi vəsaitlərin nisbəti əmsalı üçün normal məhdudiyyət aşağıdakı kimi alınır:

$$k_{xb} \leq 1$$

Göründüyü kimi müəssisənin bu göstəricisi də normativ daxilindədir.

3. Mobil və immobilizə edilmiş vəsaitlərinin nisbəti əmsalı:

$$k_{mi} = \frac{W - D}{D}$$

Burada: $D$ (balansın aktivnin I bölməsi) – immobilizə edilmiş aktivlər və ya əsas vəsaitlər və qoyuluşlar, $W - D$( balasnın aktivnin II və III bölmələri) dövriyyə aktivləri və ya mobil vəsaitlər.

4. Maliyyə çevikliyi əmsalı:

$$k_{man} = \frac{W - D}{V_x}$$

Bu əmsal müəssisənin xüsusi vəsaitlərinin hansı hissəsinin mobil formada olmasını (onlardan çevik istifadə imkanı) göstərir. Bu göstəricinin yüksək qiyməti müəssisənin maliyyə vəsaitlərinin yüksək çevikliyini əks etdirir. Lakin praktikada bu göstəricinin normal səviyyəsi barədə məlumatlar yoxdur. (bəzi mənbələrdə 0,5 qiymətinə rast gəlinir)

5. Xüsusi vəsaitlərlə təmin olunma əmsalı:

$$k_t = \frac{P^a}{Z}$$

burada $Z$ – müəssisənin məsrəf və ehtiyatlarının məbləgi (balansın II bölməsinin yekunu), $P^a$ – müəssisənin xüsusi dövriyyə vəsaitləri və ya pul vəsaitləri, debitor borclar və digər aktivlər (balansın aktivnin III bölməsinin yekunu).

Bu göstəricinin normal məhdudlaşma intervalı bir sıra iqtisadi mənbələrdə aşağıdakı kimi təqdim olunur:

$$k_t \geq 0{,}6 \div 0{,}8$$

6. İstehsal təyinatlı əmlak əmsalı:

$$k_{it} = \frac{G}{W}$$

burada $G$ - əsas vəsaitlərin, kapital qoyuluşlarının, avadanlıq, istehsal ehtiyatları və bitməmiş istehsalın ümumi dəyəri.

İqtisadi mənbələrdə $k_{it} \geq 0{,}5$ şərti bu göstəricinin normal qiyməti kimi qəbul olunur. Bu əmsalın kritik həddən aşağı düşdüyü hallarda istehsal təyinatlı əmlakı artırmaq üçün xüsusi vəsaitlər mənbələrindən istifadə edilə bilər. Əgər, müəssisənin hesabat ilində fəaliyyətinin maliyyə nəticələri buna imkan vermədikdə, onda uzun müddətli borc vəsaitlərindən istifadə edilməsi məqsədə uyğun ola bilər.

Uzunmüddətli borc vəsaitlərinin cəlb edilməsi əmsalı:

$$k_{ub} = \frac{U^T}{V^x + U^T}$$

Bu əmsal kapital qoyuluşlarının maliyyələşdirilməsində borc vəsaitlərinin xüsusi çəkisini təxminən qiymətləndirilməyə imkan verir.

7. Qısamüddətli borclar əmsalı:

$$k_q = \frac{Q^t}{W - V^x}$$

burada $Q^t$ - qısamüddətli kreditlər və borc vəsaitləri.

9. Məsrəf və ehtiyatların formalaşma mənbələrinin muxtariyyətlik əmsalı:

$$k_f = \frac{V^x - D}{W_{um}},$$

burada $W_{um}$ – məsrəf və ehtiyatların formalaşmasının əsas mənbələrinin ümumi miqdarı.

10. Kreditor borclar və digər passivlər əmsalı

$$k_k = \frac{K^h}{W - V^x}$$

Müəssisənin balansının likvidliyinin qiymətləndirilməsi:

1. Balansın mütləq likvidlilik əmsalı:

$$k_{ml} = \frac{M}{W - V^x - U^T} = \frac{M}{Q^t + K^h + B^0},$$

burada M- müəssisənin pul vəsaitləri və qısamüddətli maliyyə qoyuluşları.

$$k_{ml} \geq 0,2 \div 0,5$$

2. Balansın kritik likvidlilik əmsalı (bir sıra ədəbiyyatda bu əmsalı “aralıq örtmə əmsalı” kimi adlandırırlar):

$$k_{kl} = \frac{P^a - X_m}{W - V^x - U^T} = \frac{P^a - X_m}{K^h + Q^t + B^0},$$

burada $X_m$ - balansın aktivnin III bölməsindən immobilizə edilmiş dövriyyə vəsaitlərinin məbləği.

Kritik likvidlik əmsalı debitorlarla hesablaşmaların vaxtında aparılması halında müəssisənin ödəmə qabiliyyətliliyinin proqnozunu əks etdirir. $k_{kl} \geq 1$ bərabərsizliyi kritik likvidlik əmsalının aşağı həddini göstərir.

3. Balansın cari likvidlik əmsalı

$$k_{cl} = \frac{P^a - X_m + Z - X_g}{W - V^x - U^T} = \frac{P^a - X_m + Z - X_g}{K^h + Q^t + B^0},$$

burada $X_g -$ balansın aktivnin II bölməsində gələcək dövrün xərclərinin məbləği. (Seyfullayev İ.Z., Mühazirə materialı, 2019)

Maliyyə hesabatlarının bir sıra göstəriciləri arasında uyğunluqlar mövcuddur. Bir göstəricinin digərinə bölünməsi nəticəsində alınan göstərici əmsal adlanır. Bildiyimiz kimi, əmsalın istifadəsi ilə təhlil iki fərqli - ya eyni, ya da ki biri fərqli olan göstəricilər arasındakı nisbətə əsasən hesablanır.Maliyyə əmsalları müdiriyyət üçün müəssisənin maliyyə nəticələrini, onun maliyyə vəziyyətini və aktivlərin istifadəsinin effektivliyini tam və aydın təhlil etmək üçün vasitədir. Maliyyə əmsalları müəssisənin müdiriyyətinə öz müəssisəsini rəqiblər ilə müqayisə etməsinə, təsisçilərə, payçılara isə müəssisənin iş qabiliyyətini, onun aktivlərdən tam və effektiv istifadəsini təhlil etmək üçün imkan yaradır. İqtisadi sahələrdən olan maliyyə və mühasibatlıq sahəsində bilikləri olan hər kəs bilir ki, maliyyə əmsallarını hesablamaq üçün mühasibat balansı və maliyyə nəticələrinin ayrı-ayrı maddələrini dəqiqliklə bilmək lazımdır. Eyni zamanda maliyyə əmsallarını doğru hesablamaqla, onların düzgün izahatının verilməsini də nəzərə almaq lazımdır.
(http://sahibkarol.biz/gen/html/azl/kitabxana/29.pdf)

Kiçik müəssisənin xüsusi performansı iqtisadi sabitlik göstəriciləri kimi hesab edilməlidir. Bilirik ki, kiçik müəssisənin iqtisadi dayanıqlığının ölçüsünə mövcud elm üzrə metodologiya da müxtəlif yanaşmalarla təzahür edilir. Müəssisələrin iqtisadi dayanıqlığına diaqnoz qoymaq üçün müasir iqtisadiyyat fənninə əsasən əldə edilmiş maliyyə nəticələrinin kəmiyyət hesablamaları tətbiq edilir.

Düşünürəm ki, bu formada yanaşma ilə qiymətləndirərkən kiçik müəssisənin mövcud vəziyyətinin müəyyənləşdirilməsinə baxmayaraq, davranış üzrə dinamikası isə tədqiqatçının nəzərindən kənarda qalır. Başqa sözlə, diaqnoz kiçik müəssisənin fəaliyyət sahəsindəki əldə olunan nöqtəni müəyyənləşdirməyə imkan verir. Hərəkətin bütün istiqaməti isə kənarda qalır, müəssisənin fəaliyyət müddətini

vaxtında qiymətləndirməyə imkan vermir və bu metodikanın faydalığını əhəmiyyətli dərəcədə azaldır.

Maliyyə dayanıqlığı səviyyəsinin yekun kəmiyyətini əldə etmək üçün kiçik müəssisənin əsas fəaliyyətinin dayanıqlıq dərəcəsini qiymətləndirməyə əsaslanan kompleks üsuldan istifadə etmək təklif edilir. Bunu da nəzərə almalıyıq ki, kiçik müəssisənin ümumi iqtisadi hərəkətinin iqtisadi dayanıqlığını müəyyənləşdirən bu tip yanaşmadır və eyni zamanda o kiçik müəssisənin bütün növ təsərrüfat fəaliyyətlərinin dayanıqlığlarının məcmusundan ibarətdir. (Богатин Ю.В., 1998, с.85)

# II FƏSİL. AZƏRBAYCANDA KİÇİK MÜƏSSİSƏLƏRİN MALİYYƏ DAYANIQLIĞININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1 Kiçik müəssisələrin maliyyə dayanıqlığının təhlili

Bizə və bütün iqtisadi bilikləri olan şəxslərə məlumdur ki, gəlir bazar subyektlərini kiçik sahibkarlıqla məşğul olmağa həvəsləndirən əsas amildir. Gəlir isə onun dəyəri və həmçinin istehsal amillərinə çəkilən xərclər arasındakı fərqdir. Beləliklə, tam məlumatlı mühitdə aydın olur ki, bazar statik olur və fiziki və hüquqi şəxslərin sahibkarlıqla məğşul olmağa sitmulu qalmır. Çünki insanları biznes1ə məşğu1 olmağa sövq edən bilavasitə amil gəlirdir. (Kazımlı X., Quliyev İ., 2011, s.36)

İstənilən kiçik müəssisə sahibi öz mənfəətini artırmağa çalışır və onu gəliri müəssisəsinin əldə etdiyi mənfəətdən asılıdır. Gəlir qazanan kiçik sahibkarın həmçinin bir çox vəzifə və öhdəlikləri vardır. Cəmiyyətə zəruri olan mal istehsa1 etmək və xidmət göstərmək1ə yeni bazarlar yaratmaq, başqalarının yaratdığı mal və göstərdiyini xidmətlərin istehlakçısı kimi çıxış etmək və müvafiq vergilər ödəmək də bunlara daxildir. Deməli, cəmiyyətin daha da varlı olması üçün ölkədə yenilikçiliyi uğur1a tətbiq edərək, gə1ir ə1də etməyə cəhd edən sahibkarların çox olmasını təmin etmək lazımdır. (Niftullayev V.M., 2004, s.198)

Kiçik müəssisələrin idarə edilməsində mühasbat uçotu və ma1iyyə hesabatının rolu danılmazdır və get-gedə də artmaqdadır. Beynəlxalq standartlara əsaslanan muhasibat uçotnun və maliyyə hesabatnın tətbiqi ölkəmizin iqtisadiyyatının dünyanın digər iqtisadi cəhətdən inkişaf etmiş qurumlarına əlverişli şəkildə inteqrasiyasını və yüksələn templə inkişaf etdirilməsini nəzərdə tutmuşdur. Kiçik müəssisənin mühasibat uçotunda olan prosesin son məhsulu və qeydiyyatda olan informasiyalarının işlənməsinin son mərhələsi maliyyə hesabatıdır.

Maliyyə hesabatlarında müəssisənin kənar istifadəçilər üçün təqdim etdiyi standarta uyğun məlumatlar əks olunur. Maliyyə hesabatları ilk baxışdan oxşar görünsə də, bu hesabatlarda istifadəçilərin tələblərindən irəli gələn müəyyən fərqlər mövcud olur. Güman edilir ki, bu fərqlər sosial, iqtisadi və hüquqi vəziyyətlərlə

bağlıdır və müxtəlifliklərin səbəb olduğu əksər ölkələrdə milli tələblərin təhlil edilməsi zamanı meydana çıxır. Maliyyə hesabatları elementlərində müxtəlif anlayışlardan istifadə olunması fərqli iqtisadi vəziyyətlərin olması ilə açıqlanır. Məsələn, aktivlər, öhdəliklər, kapital, gəlir və xərclər. Bunlar həmçinin maliyyə hesabatlarında qiyrnətləndirmə zamanı fərqli əsaslara üstünlük verilrnəsinə və maddələrin tanınması zamanı müxtəlif meyarların istifadəsinə gətirib çıxarıb. Bu, maliyyə hesabatlarmın tətbiqi sahəsində olan məlumat açıqlamalarına da öz təsirini göstərmişdir. Mühasbat Uçotunun Beynəlxalq Standartları Komitəsi maliyyə hesabatlarının hazırlanması ilə bağlı qaydaların, prosedurların və mühasibat uçotu standartlarının bir-birinə uyğunlaşdırılması məqsədilə bu fərqliliklərin azaldılmasına çalışır ki, iqtisadi qərarların qəbul edilməsində faydalı olan informasiyanı təmin etmək məqsədilə hazırlanan maliyyə hesabatları üzərində fikirləri cəmləməklə daha yaxşı uyğunlaşdırmaya nail ola bilsin. Bu səbəbdən maliyyə hesabatının özünəxaslığı və özünəməxsusluğu da mühasibat uçotunun tələbələrə əsaslı və sistemli şəkildə öyrədilməsi prosesində ortaya çıxır. (https://drive.google.com/file/d/1axWwCN318KFJdk8Q7mnO2QNuUH3V4RF/view)

Maliyyənin hər bir kiçik müəssisənin ən mühüm biznes funksiyası olduğu haqqında artıq danışmışdıq. Ancaq bunu da bilməliyik ki, biznesin dilini anlamaq da mühasibatlıq sahəsində dərin biliklərin var olmasından asılıdır. Hər bir menecer üçün onun biznesini əhatə edən rəqəmləri və maliyyə hesabatlarının anlaşılması onun kiçik müəssisəsinin gələcəyi üçün olduqca vacibdir. Kiçik müəssisənin maliyyə durumunu, fəaliyyətinin nəticələrini dövri olaraq hazırlanmış olan maliyyə hesabatları özündə əks etdirir. Bu hesabatların əsasını təşkil edən elementlərini və əmələgəlmə prosesini nəzərdən keçirmək vacibdir. (https://banker.az/maliyy%C9%99-hesabatlari)

Qeyd edək ki, kiçik müəssisənin fəaliyyət mexanizmini izah edən 3 əsas maliyyə hesabatı aşağıdakılardır:

1) Mənfəət-zərər hesabatı. Kiçik müəssisənin müəyyən periodik dövr ərzində nə itirib və nə qazandığını (yəni, gəlir və xərclərini) özündə göstərir. Müəssisənin

fəaliyyəti zamanı gəlirlər üstünlük təşkil edərsə mənfəət, əks halda isə zərər yaranır: Mənfəət (zərər) = Gəlirlər – Xərclər

2) Balans hesabatı. Müəyyən olunmuş dövr ərzindəki fəaliyyəti deyil, konkret hesabların son qalığını (yəni, ana vəziyyəti) göstərir.

3) Kassa hesabatı müəyyən bir dövrdə nağd vəsaitlərin hərəkətini təsvir edir. Nağd vəsaitlərin kiçik müəssisə üçün əhəmiyyət kəsb etməsi ilə bağlı kassa hesabatının meydana gəlməsi əsas səbəblərdəndir. Kassa ilə hesablama metodları arasındakı əsas fərq kassa metodu ilə uçot apararkən satışdan pul daxil olanda, hesablama metodu ilə uçot apararkən isə satış baş verdiyi vaxtdan tam olaraq gəlir sayılır. Bir sözlə, fikrimizi tamamlasaq, nağd olan vəsaitin əldə olunması hüququ əldə edildiyi zaman gəlir kimi tanınır. Xərcin də uçota alınması eyni qaydada baş verir. Bu zaman öhdəlik yarananda xərc hesab olunur, pul kassadan məxaric olduğunda deyil.

Ümumiyyətlə, kassa metodu asan olmasına baxmayaraq nöqsanlı sayılır. Çünki, burada öhdəliklər nəzərə alınmır, debtor borcları gəlirdə öz əskini tapmır və s. Sadalananlardan dolayı biznesdə satışın əhəmiyyətli bir hissəsi demək olar ki, qeyri-nağd (kredit) qaydada baş verir. Bu səbəbdən də kassa metodu ilə uçotun aparılması heç vaxt onun maliyyəsinin vəziyyətini dürüst formada olaraq əks etdirə bilməz.

Məlum olduğu kimi məqsədləri müxtəlif olduğu üçün maliyyə hesabatları kağız daşıyıcısı formasında hazırlana bilər. Lakin müasir dövrdə vergi öhdəliyini, investisiya potensialını, müəssisənin bazar dəyərini təyin etmək üçün standart formalı hesabatlar hazırlanır, hansı ki, bu hesabatlar həm elektron formada, həm də digər formalarda tərtib olunurlar. Bu səbəbdən dolayı da maliyyə hesabatlarına şərh verilərkən hesabatın təkcə təyinatına deyil, həmçinin də, onun hazırlanma məqsədinə diqqət yetirmək labüddür. Mütləq sistematik nəzarət kiçik müəssisənin maliyyə resurslarının operativ formada təşkili üçün vacibdir. Əlәxsus da bunlardan kiçik müəssisənin mühasibat hesabatlarını, statistiki məlumatlar əsasında

araşdırmalar, onların səmərəli istifadəsi və təhqiqatlar vasitəsi ilə pozulması üzərində özünü göstərir.

Hesabatlar mahiyyətinə görə təşkilatın və bazarın digər subyektlərinin əlaqələndirici həlqəsi hesab olunur. Digər mühasibat hesabatlarında sistemli yanaşma və təhlilin fərqli formada olması səbəbindən onları istər müxtəlif dövrlərdə tərtib edilən hesabatlar ilə, istərsə də qanunvericilik ilə təsbit olunan hesabatları ilə eyniləşdirmək olmaz. Çünki dövri olan və qanunvericilik ilə təsbit olunan hesabatlar dövlətimizin ehtiyaclarını ödəyir. Bununla yanaşı, bəzi informasiyalar da vardır ki, daxili ehtiyaclara yönəldilmişdir və hesabat formasında qruplaşdırmaq lazım gəlir. Bu səbəbdən dolayı hesabatlardan həm idarəetmə məqsədləri üçün, həm də mühasibat uçotu məqsədləri üçün istifadə olunur. (Səbzəliyev S., 2018, s.10)

Bir müəssisənin nə qədər məqsədəuyğun fəaliyyət göstərdiyini, maliyyə cəhətdən hansı durumda olduğunu və ən nəhayətində maliyyə dayanıqlığı göstəricilərini analiz edərək maliyyə vəziyyətni təhlil etmək üçün onun maliyyə hesabatlarına baxmaq lazımdır.

Müxtəlif ölkələrdəki qanunvericiliyə görə maliyyə hesabatlarında də fərqlər mövcud olur. Standartlar, hansılar ki, hesabatlarda tətbiq olunur, onlar qanunvericiliyin tələblərinə əsasən müxtəlif ola bilməkdədirlər. Hesabatın tərtibi müəyyən müddəti (ay, rüb, yarımi1, i1) əhatə edir və kiçik müəssisənin təsərrüfat fəaliyyətində mühasibat uçotunun yekunu hesab olunur. Maliyyə hesabatının göstəriciləri kiçik müəssisənin keçmiş hesabat dövrlərinə aid olan informasiyalarını əks etdirməklə yanaşı fəaliyyətinin cari vəziyyətini də göstərir. Bu səbəbdən dolayı hesabatdan istifadə edən istənilən şəxs cari informasiyalar ilə keçmiş hesabat dövründə baş vermiş əməliyyatların informasiyalarını müqayisə edə bilir. Maliyyə hesabatları müxtəlif məqsədlərlə hazırlandığı kimi ondan istifadə edən istifadəçilər də fərqlidir. Lazımlı hesabatların istifadəçiləri məqsədləri səbəbindən iki qrup olaraq, birincidə menecerlər, ikincidə isə vergi orqanı, kredit təşkilatları olaraq bölünürlər. Belə ki, səhmdar və investorlar, kredit təşkilatları və təchizatçılar şirkətin maliyyə durumu ilə maraqlanırlar. Digərləri, yəni, vergi orqanları kimi digər dövlət

tənzimləyici təşkilatları isə sırf şirkətin qanunvericiliyə uyğun fəaliyyət göstərib göstərmədiklərini müəyyən edirlər. Müxtəlif kateqoriyadan olan istifadəçilərin hesabatlara yanaşma tərzini aşağıdakı cədvəldəki kimi qeyd etmək olar:

**Cədvəl 1. İstifadəçilərin maliyyə hesabatlarına yanaşma tərzi**

| | |
|---|---|
| **Şirkətin sahibi** | Şirkətin aqibəti bilavasitə şirkətin sahibi ilə bağlı olması onu digərlərindən fərqləndirən əsas amildir. Şirkətin taleyi ilə verilən son qərar məhz ona məxsusdur. Bu səbəbdən qazancının və borcunun olmasını və s. nə qədər olmasını bilmək istəyir. Bu məlumatlar əsasında vaxtında, lazımlı tədbirlər görülərək maliyyə dayanıqlığına nail olmaq mümkün hal olur. |
| **İnvestor/səhmdar** | Onlar sərmayə qoymaq üçün şirkətin gücünü ətraflı və detallı informasiya tələb edərək araşdırırlar. Çünki qoyduqları investisiyanın taleyi onları maraqlandırır. |
| **Kredit təşkilatı** | Şirkətin əldə etdiyi maliyyə vəsaitini (borcu və faizləri) geri ödəyə bilmə imkanını təyin edirlər. |
| **Rəqib** | Öz şirkəti ilə digər rəqib şirkətləri müqayisə edərək, bəzi boşluqları müəyyən edib ona uyğun siyasət təyin edərək davranırlar. |
| **Menecer/işçi** | Menecerlər ma1iyyə üzrə nəticələrində verdikləri qərarda tez-tez istifadə edirlər.Bundan başqa, işçilər də öz növbələrində işlədikləri müəssisənin bazardakı mövqeyini bilmək istəyirlər. |
| **Müştəri/təchizatçı** | Tərəfdaşlarının mümkün potensial imkanlarını araşdırır. |
| **Vergi orqanı** | Vergi öhdəliklərinin tam, vaxtında və düzgün formada yerinə yetirilməsinə nəzarət edir. |

**Mənbə:** https://banker.az/maliyy%C9%99-hesabatlari/

Hazırda müəssisələrin çox hissəsində hesablama metodu ilə mühasibat uçotunda uçot həyata keçirilir. Ancaq kiçik müəssislərin bəzilərində kassa metodundan istifadənin də şahidi oluruq. Bu iki metod arasında əsas fərq gə1ir və xərcn tanması vaxtı ilə bağlıdır.

Maliyyə əmsalları sistemi iqtisadi mənasına görə aşağıdakı qruplara bölünürlər:

1. Müəssisənin rentabellik göstəriciləri;
2. İdarəetmənin səmərəliliyinin və ya məhsulun mənfəətliliyinin qiymətləndirilməsi göstəriciləri;
3. İşgüzarlıq fəallığının və ya kaptial veriminin qiymətləndirilməsi göstəriciləri;
4. Müəssisənin bazar dayanıqlığının qiymətləndirilməsi göstəriciləri;
5. Ödəməqabiliyyətliliyin əsası kimi balans aktivinin likvidliyinin qiymətləndirilməsi göstəriciləri. (Seyfullayev İ.Z., Mühazirə materialı, 2019)

Biz də göstərilən qruplar üzrə maliyyə əmsallarını ölkəmizdə fəaliyyət göstərən "X" adlı kiçik müəssisəsinin 31/12/2019-cu i1 tarixinə olan maliyyə hesabatları əsasında analiz edərək müəssisənin onun maliyyə cəhətdən dayanıqlıq səviyyəsini, inkişaf tempini və fəaliyyət istiqamətini araşdıraq.

**Cədvəl 2. "X" şirkətinin 31/12/2019 tarixinə maliyyə vəziyyəti haqqında hesabatı**

| | Cari il | Əvvəlki il |
|---|---|---|
| **AKTİVLƏR:** | | |
| Uzumüddətli aktivlər: | | |
| 10 – Qeyri-maddi aktivlər | 0 | |
| 11 – Torpaq, Tikili və Avadanlıqlar | 3650 | |
| | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | 3650 | |
| Qısamüddətli aktivlər: | | |
| 20 – Ehtiyatlar | 2800 | |
| 21 - Qısamüddətli debitor borclar | 1410 | |
| 22 - Pul vəsaitləri və onların ekvivalentləri | 28575 | |
| 24 - Sair qısamüüdətli aktivlər | 0 | |
| | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | **32785** | |
| **Cəmi aktivlər** | **36435** | |
| **Kapital:** | | |
| 30 - Ödənilmiş nizamnamə kapitalı | 12500 | |
| 34 - Bölüşdürülməmiş mənfəət (zərər) | 12855 | |
| **Cəmi kapital** | **25355** | |
| **Öhdəliklər:** | | |
| **Uzünmüddətli öhdəliklər** | | |
| 40 - Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 0 | |
| | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **0** | |
| **Qısamüddətli öhdəliklər:** | | |
| 53 - Qısamüddətli kreditor borcları | 2000 | |
| 54 - Sair qısamüddətli öhdəliklər | 9080 | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **11080** | |
| | | |
| **Cəmi öhdəliklər** | **11080** | |
| **Cəmi kapital və öhdəliklər** | **36435** | |

**Cədvəl 3. "X" şirkətinin 31/12/2019 tarixinə mənfəət və zərərlər haqqında hesabatı**

| **GƏLİRLƏR:** | Cari il | Əvvəlki il |
|---|---|---|
| Satışdan gəlir | 9625 | |
| Satılan malların maya dəyəri | (7175) | |
| Əsas vəsaitin satışından gəlir | 3500 | |
| Silinmə xərci | (6125) | |
| Xidmətdən gəlir | 5160 | |
| | | |
| ***Cəmi gəlirlər:*** | **4985** | |
| **XƏRCLƏR:** | | |
| İcarə xərci | 1500 | |
| Kommunal xərc | 500 | |
| Əmək haqqı xərci | 1500 | |
| Amortizasiya xərci | 450 | |
| Məzənnə üzrə xərclər (VMZ)[1] | 90 | |
| Şübhəli borclar üzrə xərc | 90 | |
| | | |
| ***Cəmi xərclər*** | **4130** | |
| **MƏNFƏƏT** | **855** | |

**Cədvəl 4. "X" şirkətinin 31/12/2019 tarixinə kapitalda dəyişiklik haqqında hesabatı**

| | **Nizamnamə (Səhmdar) Kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Ehtiyat kapitalı** | **Emissiya gəliri** | **Cəmi** |
|---|---|---|---|---|---|
| İlin əvvəlinə qalıq | 12500 | 12000 | 0 | 0 | 24500 |
| İl ərzində kapital qoyuluşu | 0 | 0 | 0 | 0 | 0 |
| İl ərzində xalis mənfəətdə artma | 0 | 855 | 0 | 0 | 855 |
| İl ərzində elan edilmiş dividendlər | 0 | 0 | 0 | 0 | 0 |
| İlin sonuna qalıq | 12500 | 12855 | 0 | 0 | 25355 |

**Mənbə:** Fətullayev R., 2019, s.343

İlk öncə rentabellik terminin mənasını qeyd edək və daha sonra müəssisənin rentabelliyinin qiymətləndirilməsinə nəzər salaq. Belə ki:

Effektivlik göstəricisi kimi pul vəsaitləri və digər resurslardan istifadəni özündə əks etdirən rentabellikdir. Əmsal və yaxud faiz formasında ifadə edilir. (https://banker.az/knowledge-base/rentabellik-n%c9%99dir/)

[1] VMZ – Valyuta məzənnəsi üzrə zərər

1. Müəssisənin ümumi rentabelliyi:

$$\rho_{um} = \frac{M_{um}}{I_{or}} \cdot 100\% = \frac{855}{3650} \cdot 100\% = 0.23$$

$M_{um}$- ümumi mənfəət,

$I_{or}$ - müəssisənin əmlakının orta qiyməti.

2. Müəssisənin xalis rentabelliyi:

$$\rho_{x} = \frac{M_{x}}{I_{or}} \cdot 100\% = \frac{837.90}{3650} \cdot 100\% = 0.23$$

$M_{x}$ - müəssisənin xalis mənfəəti,

$I_{or}$ - müəssisənin əmlakının orta qiyməti.

Vergi Məcəlləsinin sadələşdirilmiş vergi ilə bağlı olan maddələrinə əsaslanaraq qeyd edə bilərik ki, bu vergi ödəyiciləri mallarn təqdim edilrnəsi, işlərin görülrnəsi, xidmətlərin göstərilrnəsi səbəbindən əldə etdiyi vəsaitin məbləğindən (yəni ki, ümumi hasilatından və ya onun həcmindən) və bununla yanaşı, satışdan kənar olan gəlirlərindən dərəcə olaraq 2 faiz ilə hesablanır. (http://www.e-qanun.az/code/12)

3. Xüsusi kapitalın xalis rentabeliyi:

$$\rho_{xk} = \frac{M_{x}}{I_{xk}} \cdot 100\% = \frac{837.90}{12500} \cdot 100\% = 0.07$$

$M_{x}$ - müəssisənin xalis mənfəəti,

$I_{xk}$ - müəssisənin xüsusi kapitalının orta qiyməti

4. İstehsal fondlarının ümumi rentabelliyi:

$$\rho_{if} = \frac{M_{um}}{I_{um}} \cdot 100\% = \frac{855}{36435} \cdot 100\% = 0.02$$

$M_{um}$- ümumi mənfəət,

$I_{um}$- əsas istehsal və maddi dövriyyə aktivlərinin orta dəyəri.

Təqdim olunan göstəricilər iqtisadi fəaliyyətin səmərəliliyinin qimyətləndirilməsi üçün ümumiləşdirici xarakter daşıyırlar. Onlara məhsulun rentabelliyi və kapital verimi göstəricilərinin səviyyəsi güclü təsir göstərir.

İdarəetmənin səmərəliliyinin qiymətləndirilməsi üçün aşağıda göstərilən düzturlara nəzər salaq. Belə ki:

1. Dövriyyənin hər manatına xalis mənfəət:

$$\mu_d = \frac{M_x}{N} \cdot 100\ \% = \frac{837.90}{2800} \cdot 100\,\% = 0.30$$

$M_x$ - müəssisənin xalis mənfəəti,

$N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində).

2. Reallaşdırılmış məhsulun 1 manatına düşən mənfəət:

$$\mu_r = \frac{M_r}{N} \cdot 100\,\% = \frac{9625}{2800} \cdot 100\,\% = 3.44$$

$M_r$ - məhsulun reallaşdırılmasından əldə edilən mənfəət,

$N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində).

3. Dövriyyənin bir manatına bütün realizasiyadan əldə edilən mənfəət miqdarı:

$$\mu_D = \frac{M_{ur}}{N} \cdot 100\,\% = \frac{18285}{2800} \cdot 100\,\% = 6{,}53$$

$M_{ur}$ - bütün realizasiyadan əldə edilən mənfəət,

$N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində)

4. Dövriyyənin bir manatına düşən ümumi mənfəət miqdarı:

$$\mu_{um} = \frac{M_{um}}{N} \cdot 100\,\% = \frac{855}{2800} \cdot 100\,\% = 0.31$$

$M_{um}$ - ümumi mənfəət,

$N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində).

İdarəetmənin səmərəliliyinin qiymətləndirilməsi göstəricilərinə diqqət yetirsək, görərik ki, onlar yalnız kəsrin surətləri ilə fərqlənirlər və bu surətdəki göstəricilər iqtisadi fəaliyyətin müəyyən maliyyə nəticələrini əks etdirirlər.

İşgüzarlıq fəallığının qiymətləndirilməsi göstəriciləri də aşağıdakı kimidir.

1. Ümumi kapital verimi (fondverimi):

$$\phi_{um} = \frac{N}{I_{or}} \cdot 100\% = \frac{2800}{3650} \cdot 100\% = 0.77$$

$N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində),

$I_{or}$ - müəssisənin əmlakının orta qiyməti.

2. Əsas istehsal vəsaitlərinin və qeyri-maddi aktivlərin verimi:

$$\phi_{a} = \frac{N}{I_{n}} \cdot 100\% = \frac{2800}{3650} \cdot 100\% = 0.77$$

$N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində),

$I_n$ - əsas istehsal vəsaitlərinin və qeyri-maddi aktivlərin orta dəyəri.

3. Bütün dövriyyə aktivlərinin dövretməsi:

$$d_a = \frac{N}{I_a} = \frac{2800}{32785} = 0.09$$

$N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində)

$I_a$ - dövriyyə aktivlərinin orta qiyməti.

4. Ehtiyatların dövretməsi:

$$d_{eh} = \frac{N}{I_{eh}} = \frac{2800}{2800} = 1$$

$N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində),

$I_{eh}$ - ehtiyatların orta dəyəri.

5. Debitor borcların dövretməsi:

$$d_{db} = \frac{N}{I_{db}} = \frac{2800}{1410} = 1.99$$

$N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində),

$I_{db}$ - debitor borcların orta dəyəri.

6. Bank aktivlərinin dövretməsi:

(Bank hesablaşma hesabları-27999, Depozit hesabı-576)

$$d_b = \frac{N}{I_b} = \frac{2800}{27999} = 0.1$$

$N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində),

$I_b$ - sərbəst pul vəsaitlərinin və qiymətli kağızların orta kəmiyyəti.

7. Xüsusi kapitala dövriyyə:

$$d_x = \frac{N}{I_{xk}} = \frac{2800}{12500} = 0.22$$

$N$ - hesabat dövrü üzrə dövriyyənin və ya məhsulun həcmi (dəyər ifadəsində),

$I_{xk}$ - müəssisənin xüsusi kapitalının orta qiyməti

Nisbi maliyyə göstəriciləri həm əmsallarla, həm də faizlərlə ifadə oluna bilər. İşgüzarlıq fəallığının göstəriciləri adətən əmsallar vasitəsilə ifadə olunur. Bir çox inkişaf etmiş ölkələrdə işgüzarlıq fəallığı göstəriciləri üzrə normativlər müəyyən edilir.

Bazar dayanıqlığının qiymətləndirilməsi müəssisənin rentabelliyi, idarəetmə səmərəliliyi və işgüzarlıq aktivliyi göstəricilərinə əsaslanır. Onları balansın tərtib edilmə vaxtı üçün hesablayır və dinamika meyllərini təhlil etmək üçün istifadə edir.

4. Maliyyə müstəqillliyi əmsalı:

$$k_m = \frac{V_x}{W} \geq 0,5 = \frac{25355}{36435} = 0.70$$

$$0.70 \geq 0,5$$

$V_x$ - xüsusi vəsaitlərin mənbələri,

$W$ - balansın ümumi məbləği.

Bu məhdudiyyət onu göstərir ki, müəssisənin bütün öhdəlikləri onun öz vəsaitləri ilə ödənilə bilər. Bu məhdudiyyətin qorunması həm müəssisənin özü üçün, həm də onun kreditorları üçün çox əhəmiyyətlidir. Müstəqillik əmsalının artımı gələcəkdə maliyyə çətinliklərinin yaranması, risklərinin azalması və müəssisənin maliyyə müstəqilliyinin artmasına dəlalət edir.

5. Xüsusi və borc vasəitlərinin nisbəti əmsalı:

$$k_{xb} = \frac{W - V_x}{V_x} = \frac{36435 - 25355}{25355} = \frac{11080}{25355} = 0.44$$

$W - V_x$ - müəssisənin bütün öhdəliklərinin miqdarı,

$V_x$ - xüsusi vəsaitlərin mənbələri,

$W$ - balansın ümumi məbləği.

Bu iki əmsalın qarşılıqlı əlaqəsi aşağıdakı kimi ifadə oluna bilər:

$$k_{xb} = \frac{1}{k_m} - 1$$

Bu bərabərlikdən borc və xüsusi vəsaitlərin nisbət əmsalı üçün normal məhdudiyyət aşağıdakı kimi alınır:

$$k_{xb} \leq 1$$

$$0.44 \leq 1$$

Bu hissədə olan hesablamalarımıza əsasən müəssisəyə məxsus öhdəliklərin miqdarının balansın xüsusi vəsaitlərindən az olduğu üçün müəssisə öz öhdəliklərini vaxtında və səmərəli şəkildə yerinə yetirə biləcəyini qeyd etmək olar. Göründüyü kimi müəssisənin bu göstəricisi də normativ daxilində oldğu üçün müəssisənin maliyyə dayanıqlığı prinsipi qorunmuş olur.

3. Mobil və immobilizə edilmiş vəsaitlərin nisbəti əmsalı:

$$k_{mi} = \frac{W - D}{D} = \frac{36435 - 3650}{3650} = \frac{32785}{3650} = 8.98$$

$D$ (balansın aktivinin I bölməsi) – immobilizə edilmiş aktivlər və ya əsas vəsaitlər və qoyuluşlar,

$W - D$ (balansın aktivnin II və III bölmələri) dövriyyə aktivləri və ya mobil vəsaitlər.

6. Maliyyə çevikliyi:

$$k_{man} = \frac{W - D}{V_x} = \frac{36435 - 3650}{25355} = \frac{32785}{25355} = 1.29$$

$W - D$ (balansın aktivnin II və III bölmələri) dövriyyə aktivləri və ya mobil vəsaitlər,

$V_x$ - xüsusi vəsaitlərin mənbələri.

Bu əmsal müəssisənin xüsusi vəsaitlərinin hansı hissəsinin mobil formada olmasını (onlardan çevik istifadə imkanı) göstərir. Bu göstəricinin yüksək qiyməti müəssisənin maliyyə vəsaitlərinin yüksək çevikliyini əks etdirir. Lakin praktikada bu göstəricinin normal səviyyəsi barədə məlumatlar yoxdur (bəzi mənbələrdə 0,5 qiymətinə rast gəlinir).

7. Xüsusi vəsaitlərlə təmin olunma əmsalı:

$$k_t = \frac{P^a}{Z} = \frac{32785}{2800} = 11.71$$

$Z$ – müəssisənin məsərf və ehtiyatlarının məbləgi (balansın II bölməsinin yekunu);

$P^a$ – müəssisənin xüsusi dövriyyə vasəitləri və ya pul vasəitləri, debitor borclar və digər aktivlər (balansın aktivnin III bölməsinin yekunu).

Bu göstəricinin normal məhdudlaşma intervalı bir sıra iqtisadi mənbələrdə aşağıdakı kimi təqdim olunur:

$$k_t \geq 0{,}6 \div 0{,}8$$

$$11.71 \geq 0{,}6 \div 0{,}8$$

8. İstehsal təyinatlı əmlak əmsalı:

$$k_{it} = \frac{G}{W} = \frac{3650}{36435} = 0.1$$

$G$ - əsas vəsaitlərin, kapital qoyuluşlarının, avadanlıq, istehsal ehtiyatları və bitməmiş istehsalın ümumi dəyəri,

$W$ - balansın ümumi məbləği.

İqtisadi mənbələrdə $k_{it} \geq 0{,}5$ şərti bu göstəricinin normal qiyməti kimi qəbul olunur. Bu əmsalın kritik həddən aşağı düşdüyü hallarda istehsal təyinatlı əmlakı artırmaq üçün xüsusi vəsait mənbələrindən istifadə edilə bilər. Əgər müəssisənin hesabat ilində fəaliyyətinin maliyyə nəticələri buna imkan vermirsə, onda uzun müddətli borc vəsaitlərindən istifadə edilməsi məqsədəuyğun ola bilər.

9. Uzunmüddətli borc vəsaitlərinin cəlb edilməsi əmsalı:

$$k_{ub} = \frac{U^T}{V^x + U^T} = \frac{0}{25355 + 0} = 0$$

Bu əmsal kapital qoyuluşlarının maliyyələşdirilməsində borc vəsaitlərinin xüsusi çəkisini təxminən qiymətləndirilməyə imkan verir.

10.Qısamüddətli borclar əmsalı:

$$k_q = \frac{Q^t}{W - V^x} = \frac{9080}{36435 - 25355} = \frac{9080}{11080} = 0.82$$

$Q^t$ - qsıamüddətli kreditlər və borc vəsaitləri.

11. Məsrəf və ehtiyatların formalaşma mənbələrinin muxtariyyətlik əmsalı:

$$k_f = \frac{V^x - D}{W_{um}} = \frac{25355 - 3650}{2800} = \frac{21705}{2800} = 7.75$$

$W_{um}$ – məsrəf və ehtiyatların formalaşmasının əsas mənbələrinin ümumi miqdarı.

9. Kreditor borclar və digər passivlər əmsalı:

$$k_k = \frac{K^h}{W - V^x} = \frac{2000}{36435 - 25355} = \frac{2000}{11080} = 0.18$$

Müəssisənin balans likvidliyinin ümumi göstəricisi onun bütün öhdəlikləri üzrə hesablaşmaları aparmaq qabiliyyətini göstərir. Bu göstərici müəssisənin

qısamüddətli öhdəliklərinin ödənilməsi imkanlarını qiymətləndirmək imkanına malik deyil. Buna görə də balansın likvidliyini qiymətləndirmək üçün üç nisbi göstəricidən istifadə olunur. Bu göstəricilər qısamüddətli öhdəliklərin ödənilməsi keyfiyyətində baxılan likvidli vəsaitlər toplusu ilə fərqlənirlər. Onların aşağıda göstərilən normal hədləri empirik məlumatların statistik emalı, ekspert sorğuları, riyazi modelləşdirmə və başqa üsullarla alınmışdır.

1.Balansın mütləq likvidlilik əmsalı:

$$k_{ml} = \frac{M}{W - V^x - U^T} = \frac{M}{Q^t + K^h + B^0} =$$

$$= \frac{28575}{36435 - 25355 - 0} = \frac{28575}{9080 + 2000 + 1} =$$

$$= \frac{28575}{11080} = \frac{28575}{11081} = 2.58$$

M - müəssisənin pul vəsaitləri və qısamüddətli maliyyə qoyuluşları (qiymətli kağızları).

Mütləq likvidlilik əmsalı yaxın müddətdə müəssisənin qısamüddətli öhdəliklərinin hansı hissəsinin ödəmək qabiliyyətinə malik olmasını göstərir. Bu göstəricinin normal hədləri aşağıdakı kimidir:

$$k_{ml} \geq 0{,}2 \div 0{,}5$$

$$2.58 \geq 0{,}2 \div 0{,}5$$

2. Balansın kritik likvidlilik əmsalı:

$$k_{kl} = \frac{P^a - X_m}{W - V^x - U^T} = \frac{P^a - X_m}{K^h + Q^t + B^0} =$$

$$= \frac{32785 - 1410}{36435 - 25355 - 0} = \frac{32785 - 1410}{9080 + 2000 + 1} =$$

$$= \frac{31375}{11080} = \frac{31375}{11081} = 2.83$$

$X_m$- balansın aktivnin III bölməsindən immobilizə edilmiş dövriyyə vəsaitlərinin məbləği.

Kritik likvidlik əmsalı debitorlarla hesablaşmaların vaxtında aparılması halında müəssisənin ödəmə qabiliyyətliliyinin proqnozunu əks etdirir. bərabərsizliyi kritik likvidlik əmsalının aşağı həddini göstərir.

Balansın kritik likvidlik əmsalı debitor borcların bir dövriyyəsinə bərabər müddətdə müəssisənin gözlənilən ödəmə qabiliyyətliliyini göstərir.

3. Balansın cari likvidlik əmsalı:

$$k_{cl} = \frac{P^a - X_m + Z - X_g}{W - V^x - U^T} = \frac{P^a - X_m + Z - X_g}{K^h + Q^t + B^0} =$$

$$= \frac{32785 - 1410 + 2800 - 0}{36435 - 25355 - 0} = \frac{32785 - 1410 + 2800 - 0}{9080 + 2000 + 1} =$$

$$= \frac{34175}{11080} = \frac{34175}{11081} = 3.08$$

$X_g$ – balansın aktivnin II bölməsində gələcək dövrün xərclərinin məbləği.

Maliyyə əmsallarının hesablanması və təhlili göstərir ki, onların hər bir qrupu kiçik müəssisənin maliyyə dayanıqlığına təsir edən maliyyə vəziyyətini xarakterizə edir. Apardığımız araşdırma və hesablamalırımıza əsasən qeyd etmək istərdik ki, tədqiqat işində göstərilmiş olan “X” adlı kiçik müəssisəsinin maliyyə dayanıqlığını təhlil edərkən onun hesabatlarına nəzər salsaq ümumilikdə müəssisənin çox da böyük olmayan mənfəətini, il ərzində kapital qoyuluşunun və elan edilmiş dividendlərinin olmadığını, həmçinin likvidliyi az olan aktivlərdən sadəcə əmlakının olduğunu, daha likvid aktivlərdən isə balans üçün vacib olan ehtiyatları, qısamüddətli debitor borcları, pul vəsaitləri və onlarm ekvivalentlərini görə bilərik. Ümumilikdə isə təhlilin nəticəsi kimi müəssisənin maliyyə dayanıqlığının səviyyəsinin müsbət istiqamətli, müasir bazar şəraitində yaradılmış imkanlar və dövlət dəstəyi, ayırdığı subsidiyalar sayəsində öz rentabelliyini müsbət istiqamətdə inkişaf etdirə biləcəyini qedy etmək olar. Ölkədə uğurla reallaşan inkşaf siyasətnin

başlıca istiqamətlərindən biri də məhz elə özəl sektorun dəstəklənməsi və bu sahədə müxtəlif təşviq mexanizmlərinin tətbiq edilməsidir.

## 2.2 Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığı səviyyəsinə təsir göstərən amillərin təhlili

Müasir və inkişaf etmiş bazar münasibətlərinin mövcud şəraitində iqtisadi olan fəaliyyətin əsas yükü iqtisadiyyatın öncül ayrılmaz hissəsi olan müəssisələrin üzərinə düşür. Kiçik olan müəssisələrdə vacib istehsal prosesi təşkil olunur. Həm strateji, həm cari, həm də operativ planları işlənib təhlil edilərək hazırlanır, kiçik müəssisənin menecmenti kimi səmərəli olan idarəetməsi yerinə yetirilir, innovasiya (yenilik) və mühüm investisiyanın fəaliyyəti baş verir, maliyyənın resurlarından qənaətlə istifadə etmək üçün müxtəlif tədbirlər görülür. (Ataşov B, İbrahimov E., Novruzov N, 2009, s.9)

Dünya təcrübəsində müəssisələrin və sahibkarlığın kiçik fəaliyyətinin haqqında qəbul edilən qanunvericiliyin təhlili orada yaşayan vətəndaşların və bütövlükdə olan cəmiyyətin mənfəətin əldə olunması məqsədilə risk, eyni zamanda əmlakının öhdəliyi şəraitində həyata keçirdikləri azad fəaliyyət sahəsi kimi sahibkarlıq fəaliyyətini göstərir. Müəssisələrdə dayanıqlı olan maliyyə üzrə potensialın formalaşması, kiçik olan müəssisənin qabaqcıl istiqamətlər üzrə onların səmərəli formada bölüşdürülməsi, eyni zamanda istifadəsilə müəyyən edilir. İnkişafını etmiş olan ölkələrin təcrübələri isbatlayırlar ki, maliyyə üzrə potensialın formalaşması məsələsi geniş məzmuna sahib olan mürəkkəb-qarışıq, sistemli bır problemdir. (Kazımlı X., Quliyev İ., 2011, s.9)

Hər bir müəssisənin səmərəli fəaliyyəti nəticəsində maliyyə dayanıqlığının möhkəmləndirilməsi məhz özünün daxili maliyyəsinin ehtiyatlarını daha da artırmaqdan asılıdır. O məsələnin tərkibi kimi maliyyə resurslarının yaranması və həmin mexanizm formalarının üzə çıxarılması, maliyyə resurslarının ümumi strukturu üzrə optimallaşdırılmasının vəzifələrinin müəyyən edilməsi və həlli z rə istiqamətlərinin aşkar edilməsi çıxış edir. Təsərrüfat subyektlərinin sərəncamında olan təsərrüfat daxili, təsərrüfatdan kənar maliyyəsinin öhdəliklərinin yerinə yetirilməsi, elm və texniki olan tərəqqinin nailiyyətlərindən bəhrələnərək təkrar olan istehsalının genişləndirilməsi pul gəlirləri və daxilolmaları kiçik olan müəssisənin maliyyəsinin ehtiyatlarını bütövlükdə təşkil etməklə onun imicini artırır. Maliyyə

ehtiyatlarının düzgün, səmərəli bölüşdürülməsi və istifadəsi bazar iqtisadiyyatı dövründə maliyyə dayanıqlığının təkmilləşdirilməsinə təsir edən əsas amillərdən biridir. Elmi-texniki tərəqqinin inkişafı müəssisələrdə idarəetmənin təkmilləşdirilməsi və xarici ölkələrin yardım etməsi maliyyə ehtiyatlarının sürətlə artması ilə əlaqədardır. (Hüseynov T. Ə., 2009)

Müasir şəraitdə səhm qoyulması əsasında kiçik müəssisələrin yaradılması daha optimal hesab edilir. Kiçik müəssisələr müxtəlif qurumlar ilə birlikdə təsis edilə bilər. Bunlardan biz ictimai kooperativ müəssisələri, xüsusi şəxsləri, mülkiyyətin digər formalarına əsaslanan təşkilatları və dövləti də misal kimi göstərə bilərik. (Atakişiyev R., 2013, fevral, http://ser.az/az/pages/8/)

Maliyyənin dayanıqlığını qoruyub saxlamaq və bazarın təsərrüfat sistemində stabil yerini tutmaq həyəcanı ilə hər bir kiçk müəssisə özünün maliyyə üzrə resurslarını müəyyən zaman kəsiyində fəaliyyət növləri üzrə bölüşdürür. Bu proseslərin dərinləşməsi təcrübə zamanı yeri düşdükcə yeni vacib maliyyə vasitələrinin aşkarlanmasına və eyni zamanda istifadəsinə də gətirib çıxarır. Müasir dövrdə, xüsusilə kiçik biznesin subyektlərindən olan kiçik sahibkarların dəstəklənməsi sisteminin formalaşdırılması zəruridir. Çünki kiçik olan biznesin tənzimlənməsi və onun dəstəklənməsi sferasında köklü qərarların qəbul olunmasına maneə yaradan səbəb əsaslı sistemin olmamasıdır. Beləliklə, səmərəli olan idarəetmə məqsədi ilə kiçik sahibkarlığın idarə olunmasının çox şaxəli sistemini yaratmaq məqsədəuyğundur. (Yaqubov S.M., Sadıqov M.M., Əliyev Ə.İ., 2001)

Təhlillərə baxdıqda anlaşılır ki, maliyyə resurslarının müəyyənləşdirilməsinin ilkin prinsiplərindən biri onların ümumi gəlir (mənfəət), yaranmış vəsaitlərin artıqlığının amortizasiya ayırmaları, və s. kimi onların qəbul etdiyi formalara görə bölünməsi və əlaqələndirilməsidir. Bundan başqa, kiçik müəssisələrin vəsaitlərinin dövriyyəsində zəruri olan onların rolunun aydın ifadə olunmasıdır.

Beləliklə, müxtəlif maliyyə axınlarının ümumi tendensiyalarını qiymətləndirməklə maliyyə üzrə resursların mahiyyətinin müəyyənləşməsində

baxılan metodoloji yanaşmaları nəzərə alaraq, üstünlüklərini və çatışmazlıqlarını tədqiqat obyekti kimi müəyyənləşdirmək olar.

Maliyyə resursları elə gəlirlər və yığımlarıdır ki, bunun əsasında kiçik müəssisələrin sərəncamında maliyyə və kredit sisteminin qarşısında onun öhdəliklərinin yerinə yetirilməsi, işçilərin maddi cəhətdən stimullaşdırılması, geniş olan təkrar istehsalın xərclərinin həyata keçirilməsi mümkündür. Maliyyənin resurslarının qorunmasının təmin edilməsi kiçik müəssisə üçün olduqca vacib və həlli labüd problemdir. Kiçik fəaliyyətini göstərən müəssisələr daxilində onun maliyyəsinin vacib ehtiyatları əsas etibarilə istehlaka hazır olan məhsulun (görülmüş olan işlərin, göstərilmiş xidmətlərin) satışından alınan mənfəətdən və əsas olan vəsaitlərinin amortizasiya üçün ayırmalarından ibarətdir.

Kiçik müəssisənin normal təsərrüfat-maliyyə fəaliyyətinin eyni zamanda maliyyənin resurslarından rasional istifadəsinin çətinləşdirilməsi və ya stimullaşdırılması həyata keçirilən maliyyə siyasətindən birbaşa asılıdır. O da özünün növbəsində maliyyənin dayanıqlığına təsir edən ən vacib göstəricilərdəndir. İlk növbədə dövlətin vergi siyasəti olduqca mühüm əhəmiyyətlilik kəsb edir. Beləliklə, kiçik olan müəssisənin maliyyə resurslarının dövriyyədən kənara yayınmasına aparan bir sıra səbəblər içərisində biz misal olaraq vergilərin satılan məhsulun maya dəyərinə daxil olunması, ə1avə dəyər vergisi (ƏDV) üzrə büdcəyə olan ödənişlərin xüsusiyyətləri, mənfəət vergisi üzrə avans ödənişləri göstərə bilərik. Bu onları-kiçik müəssisələri yüksək olan faizli borclara, planlanmamış vəsaitin mənbəyi axtarışına, maliyyə distiplininin pozulmasına məcbur etməklə fəaliyyətinin səmərəlilik göstəricisini azaldır və maliyyənin vəziyyətini pisləşdirir. (http://muhaz.org/maliyye-siyasetinin-mahiyyeti-ve-prinsipleri.html)

Kiçik müəssisələrdə maliyyənin ehtiyatlarının təhlilli toparlanması onlardan ən düzgün və sərfəli formada istifadə etmək bir qədər mühüm amildir. Maliyyə ehtiyatlarından istifadənin müxtəlif istiqamətləri, məsələn, alınan xammal-materialların dəyəri üçün ödənişlər üzrə, vergiyə və məcburi sığortaya olan ödənişlər üzrə, götürülmüş bank kreditlərinə görə faiz ödənişləri üzrə vardır. Bu səbəbdən

geniş və çoxşaxəli olması hər zaman vurğulanır. Bu sadalanan istiqamətlər isə əsasən iqtisadiyyatda öncül yer tuturlar.

Kiçik olan müəssisələrin maliyyəsinin menecmentinin doğru təşkili nəticəsində ən sərfəli şərtlərlə maliyyə ehtiyatlarını cəlb etmək, onları böyük kar ilə investisiyanın qoyuluşuna yönəltmək, maliyyə bazarında qiymətli olan kağızlar üzrə alğı-satqısı edərək faydalı olan əməliyyatları həyata keçirmək şansı da yaranır. Kiçik müəssisələrin maliyyə vəsaitinə tələbatının ödənilməsində kommersiya banklarının rolunun artırılması üçün kiçik sahibkarlara krediti verən kredit təşkilatlarına müəyyən verginin güzəştlərinin verilməsi, digər stimullaşdırıcı tədbirlərin görülməsi, həmin təşkilatların respublika bölgələrində filiallarının yaradılması, onların kiçik sahibkarlarla işləmək təcrübəsinin artırılması mütləqdir. Kiçik müəssisələrin banklardan kredit a1maq imkanlarına kreditə təminat məsələsi əhəmiyyət1i dərəcədə təsir edir. Bankları onlara - kiçik müəssisələrə kredit verməkdən çəkindirən ən vacib səbəb onların a1ınacaq kredit üçün girov qoymağa əm1akının o1maması və ya azlığıdır. Buna görə respublikada kiçik müəssisə sahiblərinə kreditə olan təminat mexanizminin yaradılması məqsədə daha uyğundur. Kiçik olan müəssisə sahiblərinə ixtisaslaşdırılmış dövlətin bankının yaradılması imkanları da  həmçinin öyrənilməlidir.

Hazırkı dövrdə dünya ölkələrində mikro kredit mexanizmlərinin əhəmiyyəti daha çox artmışdır. Mikro kredit əhalinin geniş təbəqəsinin kiçik sahibkar1ıq fəalyyətinə cə1b edilməsində və onlarm iqitsadiyyatın inkişafında öz əhəmiyyətini isbatlamışdır. Respublikada kiçik müəssisələrin sayının, əhalinin kiçik sahibkar1ıq fəaliyyətinə marağının artmasına baxmyaraq onlardan bir çoxu pu1 yığımına ma1ik deyil və kiçik fəaliyyətə başlamaq üçün az məbləğdə kreditə ehtiyaclan vardır. Onların-kiçik olan müəssisələrin həmin kreditdən geniş miqyasda istifadəsinin təmin edilməsi məqsədilə mikrokredit sxemi sadələşdirilmişdir. Kredit almaq prosedurası büruokratik maneələrdən azad olduğu üçün əksər sənədlərə ehtiyac olmur. Buna görə respublikada mikro kredit sxemlərinin inkişafı sahəsində tədbirlər görülməsi də məqsədəuyğun olardı. (İmanov Ə.Ş., 2009, s.69)

Həmçinin real iqtisadiyyatın inkişafına mühüm təsir göstərən İslam bankçılığının əhəmiyyətini də vurğulamaq istəyirəm. Qlobal maliyyə böhranı islami ma1iyyə sistemi ilə idarə o1unan müəssisələrdə o qədər də təsir etmədiyini müşahidə edirik. Bu sektor puldan pu1 qazanmağı özünə məqsəd qoymur, əksinə, real iqtisadi vəziyyətə və rea1 iqtisadiyyata əsaslanır. Digər tərəfdən mudarabə kimi praktikada az tətbiq olunan üsullarla kiçik sahibkarların inkişafına təkan olunur. İslami bankçılıqda borc alanla yanaşı bank da qazanc ə1də edir. Şərik olmaq bir neçə faiz daha çox əldə olunan gəlirlə nisbətdə hər halda yüksək qiymətləndirilməlidir. (http://ser.az/az/pages/13/)

Müəssisə və təşkilatların maliyyə dayanıqlığının əsas göstəriciləri istehsalın təşkil olunma səviyyəsi, xarici investor və kreditorlardan asılılıq səviyyəsi, kiçik təsərrüfat və maliyyəsinin əməliyyatlarının səmərəliliyi, borc ödəmə qabiyyətliliyi səviyyəsi və mənfəətlilik səviyyəsindən ibarətdir. Beləliklə, kiçik müəssisənin maliyyə vəsaitlərinin səmərəliliyinin mühüm şərti onun əsaslandırılmış idarə olunmasıdır. (Əliyev R.B., 2007)

Respublikamızda kiçik olan sahibkarlığa dövlətin dəstəyinin hüquqi cəhətdən bazasının əsasın bu mövzu ilə əlaqəli qanunu təşkil edir. Bu qanun hər 1 kəsin azad sahibkarlıq fəaliyyəti ilə qanun ilə qadağa olunmayan digər növdən olan iqtisadiyyat üzrə fəaliyyət sahəsilə məşğulluq etmək hüququnun həyata keçirilməsi məqsədini özündə ehtiva edir. Qanun ölkəmizdə kiçik sahibkarlığa dövlət dəstəyinin iqtisadi, hüquqi, təşkilati əsaslarını müəyyən edir.

Ölkəmizdə kiçik sahibkarlığın inkişafı 2020-ci il üzrə gələcəyə baxışımızı daha da genişləndirmək üçün olan konsepsiyada da əsas olan hədəflər kimi əksini tapmışdır. Bu sahənin inkişafı naminə bir çox əhəmiyyətli işlər edilir. Iki min on dördüncü ilin ölkəmizin prezidenti tərəfindən sənaye olan il kimi elan edilməsi də bariz nümunələrdəndir. Ancaq, inkişafını etmiş olan ölkələrdə kiçik biznesin Ümumi Daxili Məhsuldakı (ÜDM) hissəsi əlli faizdən çox olmasına baxmayaraq, ölkəmizdə kiçik sahibkarlğın həm xaricə olan ixracatda, həm də ÜDM-də payı olduqca aşağıdır. Mütəxəssislər bunu Azərbaycanın neft ölkəsi olması ilə əlaqələndirirlər. ÜDM-də neftimizin payının kifayət qədər çox olması da bununla əlaqədardır və bu sektorda

daha çox iri şirkətlər fəaliyyət göstərdiklərindən, iri sahibkarlığa düşən pay da yüksəkdir. (Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsyası, 2012, s.14)

Ölkəmizdə kiçik sahibkarlığa güzəştli kreditlər verilərək stimullaşdırılsa da əksər banklar kiçik müəssisə sahiblərinə uzunmüddətli kredit ayırmaqda maraqlı olmamasına səbəblər vardır. Əvvəla biznes kreditlərin məbləği böyükdür və eyni zamanda uzunmüddətli dövrə verilir. Bu isə banklar üçün istehlak kreditlərinə nəzərən daha riskli kredit qrupuna aid edilir və verilən biznes növlərdən olan kreditlərinin faiz dərəcələri olduqca çox yüksəkdir. Statistik göstəricilərə nəzər yetirdikdə görərik ki, keçən il üzrə ölkəmizdə biznes olan kreditlərinin faizləri minimum rəqəm olaraq 11 faiz təşkil edib. Sahibkarlığın subyektləri əskik vəsaitin qıt olmasından əziyyət çəkdikləri üçün bizneslərini sərbəst şəkildə qura bilmirlər. Kiçik sahibkarların həmin aldıqları vəsaitləri geri qaytarmaqda əziyyət çəkmələrinə səbəb isə faizlərin yüksək olduması göstərilir. Ölkə prezidentimiz İlham Əliyev "Üstünlük istehlak üçün olan kreditlərə yox, mövcud real olan sektora yönəldilməlidir" - ifadəsi ilə bankları real sektoru dəstəkləməyə çağırıb. (https://president.az/articles/32912)

Məlumatlara görə, cari il ərzində biznes kreditlərinin faizlərin 1 rəqəmli olma ehtimalı vardır. O isə kiçik sahibkarlığın inkişafına təkan verməklə kiçik müəssisələrin də öz növbəsində maliyyə dayanıqlığına müsbət istiqamətdə təsir edəcəkdir.

Proqnozlaşdırmaları nəzərdən keçirdikdə görə bilərik ki, bu sektorun dəstəklənməsi nəticəsində çox yaxın gələcəkdə, gələcək on il müddətində, kiçik olan biznesin daha da inkişaf edərək ölkəmizin iqtisadiyyatının aparıcı sahələrindən birinə çevriləcəyi vəd edilir. Kiçik olan biznesindavamlı və dayanıqlı inkişafını təmin edilməsi naminə:

- Sahibkarların mövcud maliyyəsinin imkanları mümkün qədər genişləndirilməlidir. Yəni ki, həmin sektorda fəaliyyət göstərən kiçik sahibkarlar-kiçik müəssisə sahibləri maliyyə vəsaitlərinə çıxışı təkcə dövlətimizin hesabına yox, özəl qurumların sayəsində də əldə edilə

bilməlidirlər. Kiçik sahibkarlar əsasən yaradılmış şərait əsasında güzəştli kreditlərdən kommersiya bankları vasitəsi ilə yararlana bilməlidirlər.

- Kiçik olan sahibkarlığın dəstəkləndirilərək həvəsləndirilməsi üçün dövlət tərəfindən kommersiya bankları stimullaşdırılmalıdır. Yəni, buradan biz belə nəticəni almış olarıq ki, müəyyən güzəştlərin edilməsi real olan sektorun sahələrinə daha da çox pul vəsait ayıran mövcud banklara aid edilə bilər.
- Faizin milli gə1irin ədalətli bölgüsünə yaratdığı maneələr aradan qaldırılmalıdır. Nəzərə alaq ki, faiz kapitalın qoyuluşunda risk1ərin və maya dəyərinin artmasına səbəb olar. Həm süni qiymət artımının göstəricisi, həm də inflyasiya göstəriciləri faiz dərəcəsinə təsir edir ki, o da nəticə olaraq məhsulun maya dəyərində öz əksini (əks təsirini) tapır. Bu da öz növbəsində faizsiz bankçılığın mahiyyətinin əhəmiyyətliliyini açıqlayır.
- Bu sahəyə maliyyə dəstəyi ilə yanaşı, xüsusi olaraq yaradılan proqramlarla təminatlarının vasitəsi ilə də həvəsləndirmək mümkündür. Gender balansı (qadın və kişilərin ictimai işlərdə bərabərliyi) kiçik biznes sahəsində dəstəklənməsi məqsədə uyğundur. Məsələn, Xanımların rəhbəri olduqları kiçik müəssisələrə vergi güzəştlərinin vasitəsi ilə sinkişaf etdirilə bilər bilər. (Dünya ölkələrindəki bu təcrübələri müəyyən çərçivələr daxilində ölkəmizdə tətbiq etmək olar)
- İxrac imkanları olan kiçik müəssisə sahiblərinə ixracın həcminə uyğun olaraq subsidiyaların verilməsi imkanı yaranır. Beləliklə, kiçik müəssisə nə qədər ki çox miqdarda məhsulu ixrac edərsə, ölkəmizə daha artıq valyuta daxil olmasına imkan yaranar. Buna görə ixrac qabiliyyətinin yüksək ölçüsü və fəaliyyət sahəsinə görə kiçik müəssisələr mütləq istiqamətdə stimullaşdırılmalıdır.
- Ölkəmizdə tərəqqi yönümlü olan sferanın inkişafı dinamikası mütləq sürətləndirilməlidir. Bu halda olduğu zaman azad rəqabət mühiti yaranar ki, o da özünün növbəsində kiçik biznes sahəsinin inkişafında olduqca çox mühüm

rol olaraq oynayar. (https://storybuilder.jumpstart.ge/en/azrbaycanda-kicik-v-orta-biznesin-inkisafi-niy-lngiyir)

Fikrimizcə, kiçik müəssisələrin dayanıqlıq göstəricilərini təhlil edərək iqitsadi problemləri həll etməklə, iqitsadi prosesləri düzgün qiymətləndirməklə və maliyyə dayanıqlığını sabit saxlamış müəssisələrin təcrübəsindən bəhrələnərək kiçik müəssisələrin iqitsadi inkişaf modelini müəyyənləşdirmək mümkündür. Yəni, kiçik müəssisələrə inkişaf etməkdə olan sistem kimi baxmaqla yanaşı burada insan faktoruna, iqtsadi proseslərə və eyni zamanda dövlətin müdaxiləsinin formalarına və üsullarına xüsusilə diqqət etmək də lazımdır.

# III FƏSİL. KİÇİK MÜƏSSİSƏLƏRİN MALİYYƏ DAYANIQLIĞININ YÜKSƏLDİLMƏSİ YOLLARI

## 3.1 Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığı ilə bağlı məhdudiyyətlər

Kiçik müəssisələr biznes mühitində maliyyə dayanıqlığı ilə əlaqəli bir çox problemlərlə qarşılaşırlar. Bu problemlər arasında təcrübəsizlik, idarəetmədə çətinlik, bazara tam bələd olmamaq kimi məsələlərlə yanaşı, ən mühümü onların maliyyə mənbələrinə çata bilməməsidir ki, bu da tədqiqatın araşdırılması zamanı müəyyən məhdudiyyətlər yaratmışdır. (https://www.researchgate.net/publication/321151689_Gnc_Sahibkarlarin_Maliyy_Problemlri_v_Onun_Hlli_Yollari)

Məlumdur ki, kiçik müəssisələrin maliyyə mexanizmində elm və texnikanın nailiyyətlərini tətbiq etmək əsas vəzifə və öhdəliklərdəndir. Müasir dövrdə maliyyə mexanizminin inkişafının əsas istiqaməti müəssisələrdə istehsalın səmərəliliyinin yüksəldilməsidir. Bu yüksəliş xalq təsərrüfatı qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi, zəhmətkeşlərin rifahının artırılması istehsalın səmərəliliyinin yüksəldilməsini tələb edir. Hal-hazırda istehsal strukturunun təkmilləşdirilməsi, az büdcəli məsrəfin və ehtiyatın köməyi ilə istehsalda daha yüksək nəticə əldə edilməsi əsas məsələdir. Məhsuldan çox istehsal edilməsi və eyni zamanda istehsalının rentabelliyinin yüksəldilməsi üçün həmin məhsul vahidinə az xərc çəkilməsi məqsədə uyğundur.

Bununla yanaşı, maliyyə siyasətinin özü də müəssisənin əməliyyat fəaliyyətinin inkişaf strategiyasının formalaşmasına əhəmiyyətli təsir göstərir. Əmtəə bazarının istehlak və ya istehsal amillərinin inkişaf tendensiyaları istehsal olunmuş məhsul satışının realizə edilməsinin yüksək sürəti, yerinə yetirilən əməliyyatların nəticəsində mənfəətinin artması və kiçik müəssisənin iqtisadi sferada rəqabət pozisiyasının yüksəlməsi kimi əsas məqsədləri ilə birbaşa əlaqədardır. Bu halda maliyyə siyasəti seçilmiş ümumi iqtisadi strategiyaya müvafiq olaraq müəssisənin səmərəli inkişafını təminat verən vacib amillərdən biri kimi nəzərdən

keçirilir. Kiçik müəssisənin əməliyyat fəaliyyətinin məqsədli maliyyə məhdudiyyəti ilə bağlı olaraq realizə oluna bilməməsinə səbəb kimi əmtəə və investisiya bazarlarının inkişaf tendensiyalarının bir-birinə uyğun gəlməməsi göstərilir. Bu halda müəssisənin əməliyyat strategiyasına düzəlişlər edilməlidir. (Atakişiyev M.C., Nurəliyeva R.N., Abbasova N.H., 2012, s.71)

Qeyd etməliyik ki, müəssisələrin maliyyə siyasəti işləndikdə aşağıdakılar nəzərə alınmalıdır:

- işlənib hazırlanan tədbirlər Azərbaycan Respublikasında maliyyə fəaliyyətinin tənzimlənməsinə dair hüquqi-normativ aktlara uyğun olmalıdır;
- qoyulan investisiyalar iqtisadi, elmi-texniki, ekoloji və sosial səmərəni təmin etməlidir;
- müəssisə investisiya olunan kapitala mənfəət almalıdır;
- müəssisə mənfəətin səmərəliliyini artırmaq məqsədilə bütün mümkün olan dövlət yardımı imkanlarından istifadə etməyi nəzərdə tutmalıdır;
- müəssisə beynəlxalq və xarici təşkilatlar və yerli bankların subsidiya və güzəştli kreditlərin cəlb edilməsi imkanlarını nəzərə almalıdır;
- müəssisənin maliyyə dayanıqlığı və ödəmə qabiliyyətinin təmini üçün investisiyanın gəlirliliyi və likvidliyi optimallaşdırılmalıdır.

Əsasən stabil məhsul çeşidi olan və istehsal texnologiyalı, texnoloji tərəqqinin təsirinə az məruz qalmış kiçik müəssisələrdə artım tipinə görə məhdud əməliyyat strategiyasından istifadə olunur. Əmtəə bazarının konyunkturasının nisbətən zəif dəyişməsi və müəssisənin stabil rəqabət pozisiyası mövcud olduğu şəraitdə belə strategiyanın seçilməsi mümkündür. Bu şəraitdə müəssisənin maliyyə siyasəti ilk növbədə səmərəli təkrar istehsal prosesləri və aktivlərin artımına istiqamətlənir.

Qeyd etməliyik ki, müəssisənin strateji investisiya mövqeyinin arzu olunan parametrlərinə nail olmadan obyektiv məhdudiyyətlər nəzərə alınmalıdır. Belə məhdudiyyətlərdən biri müəssisənin ölçüsüdür. Belə ki, kiçik müəssisələrin investisiya resurslarının kifayət dərəcədə olmaması onlara investisiya fəaliyyəti şaxələndirməklə onun strategiyasının geniş məqsədlərini irəli sürməyə imkan vermir. Ona görə də əsasən kiçik müəssisələrdə iqtisadi inkişafın vəzifələrindən olan

investisiyalaşdırma prosesi sıradan çıxmış əsas vasəitlər və qəyri-maddi aktivlərin vaxtında təzələnməsi kimi real investisiyalaşdırma sferası ilə məhdudlaşır. (Atakişiyev M.C., Nurəliyeva R.N., Abbasova N.H., 2012, s.94)

Eyni zamanda investisiya resurslarının mümkün olan həcmi də maliyyə dayanıqlığı ilə bağlı obyektiv məhdudlaşdırıcı kimi çıxış edir. İnvestisiyanın fəaliyyətinin minimal həcmini onun kritik kütləsi xarakterizə edir. Bazarların qloballaşdırılması, texnoloji prosesin tempinin sürətlənməsi, kapitalın verim normasının azalması investisiyanın kritik kütləsinin daim artmasını şərtləndirir. Bu isə gəlirlərin dəyişmədiyi halda müəssisələrin iqtisadi inkişafını mürəkkəbləşdirir və onların strateji məqsədlərinin parametrlərini kəmiyyətcə azaldır. (http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=42)

Maliyyə fəaliyyətinin inkişafının arzu olunan və arzu olunmayan tendensiyalarının təyini, eləcə də kiçik müəssisənin investisiya pozisiyasının formalaşması prosesində obyektiv məhdudiyyətlərin uçota alınması, investisiya fəaliyyətinin əsas strateji məqsədlər sistemini tərtib etməyə imkan verir. Bu məqsədlər sistemini dəqiq və qısa fomalaşdıraraq, onların hər biri konkret göstəricilərdə - strateji məqsədlər normativində əks olunmalıdır. (Atakişiyev M.C., Nurəliyeva R.N., Abbasova N.H., 2012, s.93-95)

Çox sayda təzyiq və məhdudiyyətlərlə üzləşmək hər bir kiçik müəssisənin dəyişən xarici mühitdə özündən asılı olmayan səbəblərdən qarşılaşdığı problemlərdir. Bu təzyiq və məhdudiyyətlər dövlət, yerli özünüidarə orqanları, ictimai təşkilatlar, istehlakçıların hüquqlarının müdafiəsi və ekologiyanın qorunması üzrə müxtəlif təşkilatlar tərəfindən olur. Müəssisə buraxdığı məhsula tələbatın dəyişməsi, rəqiblərin bazara yeni istehsa1 olunan məhsu1 və ya xidmətin təklifi, məhsul qiymətinin dəyişməsi, investorların davranışı və s. hamısı sürətli formada dəyişən başlıca parametrlər kimi göstərilən göstəricilərdir. (İsmayılov B.V., 2018, s.66)

Bütün qeyd edilən məqsədli normativlər kiçik müəssisənin maliyyə fəaliyyətinin başlıca strateji məqsədinin birbaşa realizə olunmasını xarakterizə edir. Dünyanın bir çox inkişafını etmiş ökələrində kiçik biznes müəssisələrin maliyyələşdiri1məsi ilə bağ1ı xüsusi döv1ət qurumları, müxtə1if formalı fondlar

fəa1iyyət göstərir. Ölkəmizdə be1ə kiçik müəssisələrin maliyyələşdirilməsindəki məhdudiyyətlər kiçik müəssisələrin inkişafina mane olmaqla bərabər, bununla əlaqəli o1an problem1ərin daha da dərinləşrnəsinə səbəb və nəticə olur. Ölkəmizdə dövlət tərəfindən kiçik sahibkarlığın maliyyələşdirilməsi üçün müxtəlif mexanizmlərin fəaliyyət göstərməsinə baxmayaraq, maliyyələşdirilmə zamanı müəyyən təkrnilləşdirmə işlərinin aparılrnasına ehtiyac duyulur. Buna əlavə olaraq, bank kreditlərindən, beynəlxalq maliyyə fondlarının vəsaitlərindən istifadə etməklə, həmçinin, dünya təcrübəsində geniş yayılan françayzinq və lizinqin istifadəsi ilə kiçik bizneslə məşğul olan subyektlərin inkişafını sürətləndirmək, bu tip kiçik müəssisələrin avadanlıq alması üçün maliyyələşdirilməsinə yardım etmək mümkündür. Təsadüfi deyil ki, 2016-cı ildə ölkəmizin prezidentinin imzaladıgı fərmanı i1ə təsdiqlənmiş "Strateji Yol Xəritəsi"ndə də sahibkar1ığa dəstəyə geniş yer veri1miş və 2020-ci i1 strateji baxış konsepsiyasında, e1əcə də 2025-ci i1ə qədər olan uzunmüddət1i baxış şərhində bu sahənin ölkəmizin iqtisadiyyatı üçün nə qədər vacib və əhəmiyyətli olduğu vurğulanmışdır. Belə ki, ölkəmizin iqtisadiyyatının daim böyüməsi üçün məhz sözügedən fəaliyyət sahəsinin onun əsas problemi sayılan maliyyə baxımından təminatı və inkişafi hazırki dövrdə öz aktuallığını saxlayır.

Kiçik sahibkar1ıq subyetklərinin fəaliyyətlərni məhdudlaşdıran səbəblərdən biri də bir çox sahə üçün 1isenziya tələb olunması və bu 1isenziyalarm alınmasının şərtləri idi ki, məhz cənab prezidentin 2016-cı ilin 21 dekabr tarixində 713 nömrəli "Lisenziyalaşdırına sahəsində bəzi görülən tədbirlər haqqında" adında Fərmanına əsasən fəaliyyətinə lisenziya üzrə icazə verilən sahələrin sayı azaldılmışdır. Bundan əlavə, hələ də keçərli olan elan edilmiş müddətsiz lisenziyalar (müddətli lisenziyalar əvəz edilib), onların-lisenziyaların alınması üçün icra edilən xeyli asanlaşdırılmış proseslər, dövlətə ödənilən rüsumlar üzrə azalmalar (iki qat) inkişafin və dəstəyin göstəriciləridir. Regionlarda isə bu azalmalar dörd qat müşahidə olunmuşdur.

Kiçik müəssisələrin kreditləşməsi zamanı onların maddi vəziyyətinin çətinlik yaratması ilə yanaşı, biznesdə təcrübəsiz olmaları da kredit verilməsinə təsir edən

amillərdəndir. Bundan əlavə, kiçik müəssisələrdə maliyyə baxımından müəyyən çətinliklərin olması kreditin riskliliyini artıraraq kredit ödəniş prinsiplərinə mənfi təsir edir. Bu zaman, borc alanlara qarşı banklar tərəfindən kreditləşmənin prinsiplərində və eyni zamanda faiz üzrə tariflərində daha möhkəm tələblər və qaydalar qoyulur. Bu cür tələblər isə onlar tərəfindən təmin edilə bilmədiyi üçün onların kredit götürməsi imkanları aşağı düşür.
(https://www.researchgate.net/publication/321151689_Gnc_Sahibkarlarin_Maliyy_Problemlri_v_Onun_Hlli_Yollari)

Bəzən kiçik müəssisələrin maliyyə dəstəyi əldə etməsinə maneə olan amillərdən biri də əldə etdikləri maliyyə vəsaitinin düzgün istifadə etməmələridir. Pul vəsaitlərinin düzgün və səmərəli idarə edilməsi üçün biznesə başlamadan öncə biznes plan hazırlamaq lazımdır. Biznes plan kiçik müəssisənin marketinq strategiyasını, insan resurslarını, maliyyə hesabatlarını, biznes əlaqələrini və təchizatçılarını, biznesin xüsusiyyətindən asılı olaraq bütün kiçik detalları əhatə edəcək şəkildə, kiçik biznesmen üçün "yol xəritəsi" kimi hazırlanmalıdır. Burada bazara daxil olma tarixlərindən tutmuş, hər ay (yeni başlayanlar üçün lazım olarsa, hər həftə və hər gün) üçün xərc maddələri və onlara sərf olunan maliyyə haqqında planlaşdırılmış göstəricilər olmalı, bu göstəricilər hər hesabat ayı (həftəsi və ya günü) üçün müzakirə edilməli, hesabatlar hazırlanmalıdır. Bununla da maliyyə vəsaitlərinin düzgün istifadə edilməsi üçün müəyyən irəliləyiş əldə etmək olar.

Kiçik müəssisələrin maliyyə dayanıqlığına dolayı yolla məhdudiyyətlər yaradan səbəblərdən birincisi marketinq strategiyasının düzgün qurulmamasıdır. Belə ki, "müştəri hər zaman haqlıdır" strategiyası ilə məsələyə baxdıqda müştərilərə onların istədiyi kimi xidmət etmək və daim müştəri məmnuniyyətini yüksəltmək tələb olunur. Bu məsələni həll etməkdən ötrü bazar araşdırılmalı, müştərinin istəyi və innovativlik birinci dərəcəli amil kimi nəzərə alınaraq strategiya qurulmalıdır. İkincisi, müəssisəyə aidiyyəti olan bütün şəxslər inkişaf üçün daim çalışmalıdırlar. Buraya, ideyanın sahibindən satışı həyata keçirən nümayəndəyə kimi, təmizlik işlərini görən xadimədən kiçik müəssissənin sistemli uçotunu aparan mühasibə kimi

hər kəs daxil edilir. Bu da düzgün menecment-motivasiya sisteminin olması bu problemi həll edə bilər.

(https://www.researchgate.net/publication/321151689_Gnc_Sahibkarlarin_Maliyy_Problemlri_v_Onun_Hlli_Yollari)

Olunan təhlillərə əsasən deyilə bilər ki, Azərbaycan son illərdə həyata keçirdiyi özəl sektora dəstək tədbirləri nəticəsində həm qlobal, həm də regional səviyyədə ən islahatçı ölkə kimi tanınmışdır. Nəticədə bazarların fəaliyyətinə mane olan məhdudiyyətlərin aradan qaldırılması Azərbaycana bütün iqtisadiyyatı boyunca tərəqqiyə nail olmaq imkanını yaradacaqdır.

## 3.2 Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığının artırılması istiqamətləri

Kiçik müəssisələrin maliyyə vəziyyətinin sağlamlaşdırılması bir qrup problemlərin həllini şərtləndirir. Müasir mərhələdə ölkə iqtisadiyyatnın müxtəlif sahələrində ziyanla işləyən kiçik müəssisə və təşkilatların fəaliyyətlərinin dərindən təhlilinin aparılması və problemlərinin aradan qaldırılması üçün müvafiq konsepsiyaların işlənilməsi labüddür. Azad bazar rəqabəti şəraitində kiçik müəssisənin fəaliyyətində davamlılıq göstərərək iflasa və ya böyük maliyyə uğursuzluqlarına düçar olmaması, rəqabətdə liderlik etməklə mənfəətinin maksimumlaşdırılması, balansının likvidlik dərəcəsini yüksəltməklə, mümkün iqtisadi artım templərinə nail olunması, nəticədə isə kiçik müəssisə fəa1iyyətinin yüksək rentabelliyinin təmin o1unması kimi fəa1iyyətində həlledici ro1 oynayan bu əlamətlər ma1iyyə dayanıqlığından bilavasitə ası1ıdır.

Bazar münasibət1əri şəraitində təsərrüfat subyektinin sabit vəziyyətinin əsası və inkişafi onun maliyyə dayanıqlığından asılıdır. Maliyyə dayanıqlığının əldə edilməsi istehsal səmərəliyinin yüksəldilməsi hesabına mümkündür. İstehsal səmərəliyinin yüksəldilməsi bütün növ resursların səmərəli istifadəsi, xərclərin azaldılması, məhsul və xidmətin keyfiyyətinin artırılması hesabına əldə edilir. Müasir bazar iqtisadyyatı şəraitində ma1iyyə dayanıq1ığını qorumaq və bazar təsərrüfatı sistemində sabit yer tutrnaq qayğısı ilə kiçik müəssisələrin öz ma1iyyə resurslarını fəaliyyət növ1əri əsasən və müəyyən zaman kəsiyində bölüşdürməsinin inkişaf etdirməsi bu işin mürəkkəbləşməsinə və təcrübədə yeri gə1dikcə yeni xüsusi ma1iyyə alətlərinin istifadəsinə gətirib çıxarır.

Bazar münasibətlərinin iqtisadiyyata getdikcə daha çox nüfuz etdiyi və bazarın ümumi konyukturunda dayanıqlığının olmadığı bir şəraitdə idarəetmə strategiyası müəssisənin istehsalat-təsərrüfat fəaliyyətinin stabilləşdirilməsinə istiqamətləndirilməlidir.

Kiçik müəssisələrin fəaliyyəti nəticəsində ölkədə zəruri olan, strateji əhəmiyyət kəsb edən və əhalinin tələbatını ödəyən məhsulların istehsalına da şərait

yaradılır. Araşdırmalar göstərir ki, keyfiyyət baxımından strateji cəhətdən önəmli qərarların qəbul edilməsi nəticəsində kiçik müəssisənin sabit gəlirlə işləməsi, onun müvəffəqiyyəti və tədqiqatımızın əsasını təşkil edən maliyyə dayanıqlığına nail olunması mümkündür. Eyni zamanda kiçik müəssisədə marketinq və maliyyə menecmenti üzrə tədqiqatlar həyata keçirmədən gəlirlərin sabit artırılmasına nail olmaq mümkün deyildir.

Kiçik müəssisələrin müstəqil olub öz göstərdikləri fəaliyyətlərin nəticələrinə görə məsuliyyətlərinin qat-qat artdığı bir şəraitdə müəssisədaxili maliyyə strategiyasına böyük ehtiyac duyulur. Bunun üçün maliyyə durumunun möhkəmləndirilməsinə, maliyyə imkanlarına görə perspektiv istiqamətlərin müəyyən edilməsinə, digər təsərrüfat subyektlərinin maliyyə vəziyyətlərinin öyrənilməsinə obyektiv zərurət yaranır. (Əhmədov M.A., Hüseyn A.C., 2011, s.14)

Maliyyə strategiyası maliyyənin formalaşmasının, planlaşdırılmasının nəzəri və praktiki məsələlərini əhatə edir, bazar təsərrüfatı şəraitində kiçik müəssisənin maliyyə dayanıqlığını təmin edən vəzifələri həll edir. Maliyyə strategiyası nəzəriyyəsi bazar münasibətləri əsasında qurulan təsərrüfatçılığın obyektiv qanunauyğunluqlarını tədqiq edir, yeni şəraitdə müəssisənin fəaliyyət göstərməsinin, müəyyən dövrə görə maliyyə taktikasının hazırlanıb həyata keçirilməsinin üsul və formalarını araşdırır.

İqtisadi cəhətdən maliyyə dayanıqlığının artırılması üçün kiçik müəssisənin öncül istiqamətlərində başlıcası ma1iyyə resurslarının düzgün və səmərə1i bölüşdürülməsi və istifadəsi müəyyən olunur. İEÖ-lərin təcrübəsi isbat edir ki, kiçik müəssisələrin maliyyə menecmenti zəngin məzmuna ma1ik olan mürəkkəb, sistemli bir prob1emdir. Və məlumdur ki, bunun həll olması ilə müəssisədə maliyyə dayanıqlığına nail oluna bilər. Bu prob1emin tərkib hissələri kimi hər şeydən əvvə1 ma1iyyə resurs1arının əməəgəlmə və reallaşma mexanizmlərinin aşkar1anması, ma1iyyə resurs1arının strukturunun optimallaşdırı1ması vəzifələrinin müəyyən edi1məsi və on1arın həlli istiqamətlərinin üzə çıxarı1ması çıxış edir.

Müəssisənin fəaliyyətini, onun bütün səviyyəli büdcələrlə qarşılıqlı münasibətlərini, gəlirin əmələ gəlməsini və istifadə olunmasının, ehtiyacların həcmini və il ərzində onların maliyyələşmə mənbələrini müəyyən edən strategiya baş maliyyə strategiyası adlanır. Maliyyə menecmentinin baş strateji məqsədi kiçik müəssisəni zəruri və kifayət qədər pu1 resurs1arı i1ə təmin etməkdir. Onun əsasmda bazarın tələblərinə və müəssisənin imkanlarına uyğun olan ma1iyyə strategiyası hazır1anır ki, burada da icraçı1ar və iş istiqamətləri üzrə vəzifə1ər müəyyən edilir və bö1üşdürü1ür. Bunu öyrənməkdə başlıca məqsəd - müəssənin bazar dəyərini artırmaq; sabit artım tenplərini təmin etmək; mənfəəti yuxarı həddə çatdırmaq; maliyyə vəzyətinin stabilliyini qoruyub saxlamaq; əmtəə və göstərilən xidmətlərin satış həcmini artırmaq; rəqiblərlə mübarizədə lidərlik etmək və s. bu kimi önəmli məqsədləri əsas tutur.

Ölkənin sosial-iqtisadi problemərinin vaxtında həllinin əsas amili ma1iyyə resurslarınm formalaşması və ondan sərnərəli istifadə olunrnası, hər bir kiçik müəssisənin 1ikvidlik və dayanıq1ıq göstəricilərnin yüksək olması və eyni zamanda onun digər müəssisələr arasında səmərə1i inteqrasiyasının təmin olunması ilə ölçülür. Maliyyə resursları ilə gündəlik manevr etmək, vasitələrin xərclənməsinə və xüsusilə daxili ehtiyatların səfərbər edilməsinə nəzarət etmək üçün rüblük, aylıq, zərurət olduqda isə daha qısa müddətə maliyyə strategiyası hazırlanır.

Ölkəmizdə kiçik sahibkarlığın inkişafi üzrə yaxın gələcək üçün strateji baxış kiçik binzes mühitinin daha da inikşaf etdirilrnəsi ilə subyektlər maliyyə vəsaitlərinə əl çatanlığın əlverişli olmasına və satış bazarlarına çıxışının asanlaşdırılmasına, biznes bacarıqları artırılmaqla rəqabətqabiliyyətliliyinin təmin olunmasına və iqtisadi inkişafdakı rolunun daha da artırılmasına nail olmaqdır.

Kiçik müəssisənin iqtisadi dayanıqlıq səviyyəsini müəyyən etmək üçün onun öz vəsaitlərinin rentabelliyi, gəlirlilik, müəssisənin maliyyə davamlığı və dayanıqlığı əmsalı, maliyyə levereci, kiçik müəssisənin öz vəsaitləri, amortizasiya ayırmaları, maliyyə müstəqilliyi əmsalı, uzunmüddətli borc, əmlak və maddi dövriyyə aktivlərin real dəyərini əhatə edən investisiya, borc fondları və özünü

maliyyələşdirmə qabiliyyətinin nisbəti, özünü maliyyələşdirmə gücü nisbəti və əlavə dəyər, manevr əmsalı kimi iqtisadi göstəricilər sistemi təklif edilir. (Стоянов E.A., Стоянова E.C., 1993, c.26)

Müəssisənin maliyyə strategiyası sistemi aşağıdakı kimidir:

**Cədvəl 5. Müəssisələrin maliyyə strategiyasının işlənilməsi sxemi**

| **Müəssisənin maliyyə strategiyası** | |
|---|---|
| Maliyyə durumunun təhlili | Gəlirlər və daxilolmalar |
| Qiymət siyasəti | Məxariclər və vəsaitlərinin ayrılması |
| Mənfəətin bölüşdürülməsinin optimallaşdırılması | Kreditorlar üzrə qarşılıqlı münasibətlər |
| Vergi siyasəti | Büdcə ilə qarşılıqlı münasibətlər |
| Qiymətli kağızlar sahəsindəki siyasət | |
| Xarici iqtisadi fəaliyyət | |
| Nağdsız hesablaşmaların optimallaşdırılması | |
| Əsas və dövriyyə vəsaitlərinin optimallaşdırılması | |

**Mənbə:** Novruzov N.A., Hüseynov X.Ə., 2007, s. 52

Beləliklə, kiçik müəssisənin maliyyə startegiyasının müvəffəqiyyətinə bu startegiyanın nəzəriyyəsi və praktikası uz1aşdırılmış, tarazlaşdırılmış olduğu halda təminat verilmiş olur. İqtisadi mühit dəyişdikcə maliyyə proseslərini ciddi qaydada mərkəzləşdirmək, çevik metodlardan istifadə ilə real strateji məqsədləri iqtisadi və ma1iyyə imkan1arına uyğun1aşdırmaq lazım gəlir.

Bütün bu göstərilənləri nəzərə alaraq maliyyə mexanizminin təkmilləşdirilməsində aşağıdakıları diqqətdə saxlamaq məqsədəuyğundur:

1. Maliyyə və kredit sisteminin daim təkmilləşdirilməsini tələb edən ən səmərəli bazar iqitsadiyyatıdır. Bu maliyyə mexanizmindən səmərəli istifadəsi nəticəsində ölkəmizdə təkrar istehsalı genişləndirmək üçün maliyyə sisteminin əsas hərəkətverici qüvvəsidir.
2. Maliyyə mexanizminin səmərəli qurulmasında kiçik müəssisələrin həm maliyyə mexanizimi, həm də maliyyə menecmenti xüsusi yer tutur. Dövlətin maliyyə ehtiyatlarının yaradılmasında kiçik müəssisələrin maliyyəsi xüsusi rol oynayır.

3. Dövriyyə kapitalları bazar iqitsadiyyatı dövründə kiçik müəssisələrdə maliyyə mexanizminin səmərəli təşkil edilməsində da vacib əhəmiyyətə malikdir. Bu səbəbdən təhlilimizin məqsədi olan maliyyə dayanıqlığına nail olunması üçün kiçik müəssisələrdə əsas və dövrüyyə kapitallarından düzgün formada və səmərəli şəkildə istifadə edilməlidir.

Bütün bunları nəzərə alaraq kiçik müəssisələrin maliyyə dayanıqlığının sağlamlaşdırılması ilə bağlı tənzimlənmə prosesinin aydınlaşdırmasının elmi-təcrübi əhəmiyyət daşıdığını qeyd etmək zəruridir. Hər şeydən öncə mütəxəssislər öz analizlərini belə izah edirlər ki, ödəmə qabiliyyətini itirmiş kiçik müəssisələrin maliyyə cəhətdən sağlamlaşdırılması üçün biznes planın nümunə formasına uyğun tədbirlərin həyata keçirilməsi əsasdır. Kiçik müəssisənin onun mühasibat balansının qeyri-qənaətbəxş strukturunun təyin edilməsi üçün maliyyə durumunun qiymətləndirilməsi lazımdır. (Ataşov B., İbrahimov E., Novruzov N., 2009, s.235)

Ölkəmizdə kiçik sahibkarlığın inkişafi məsələsinə kifayət qədər ciddi yanaşma tətbiq edilməlidir. Bunun üçün tək tərəfli deyil, bir çox istiqamətlərdə, yəni, makroiqtisadi siyasətdən başlamış vətəndaşlarımızın, xüsusilə də kiçik sahibkarların və əlaqəli dövlət orqanlarının məsələyə baxış tərzinə qədər məsələyə diqqət yetirməsi tələb olunur. Bu səbəbdən kiçik sahibkarlığın inkişafina dəstək verən institusiona1 dəyişikliklərin həyata keçirilməsi və inkişafi naminə əlverişli mühitin yaradılması strateji əhəmiyyət kəsb edən məsələlərdəndir.

Kiçik müəssisənin dayanıqlı inkişaf strategiyasının uğurla reallaşdırılması üçün investisiyalaşmaya və maliyyə menecmenti sisteminin düzgün qurulmasına üstünlük verilməlidir. Bu zaman mövcud ehtiyatlardan maksimum istifadə və risklərin idarəolunan formada nəzarətdə saxlanılması ilə müştərək kiçik müəssisələrin yaradılması müsbət nəticə1ər ə1də etməyə imkan verəcəkdir. Ölkəmizdə innovasiya yönümlü iqtisadiyyatda pozitiv dəyişikliklərə nail olmaq üçün rəqabətqabiliyyətli kiçik emal müəssisələri yaradılmalı və onların investisiya təminatının əsaslı şəkildə yaxşılaşdırılması hesabına innovasiya fəaliyyəti genişləndirilməlidir. (İsmayılov B.V., 2018, s.34)

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Ölkəmizdə iqtisadiyyatın keçid dövründə bazar münasibətlərinə dayanan təsərrüfatçılıq sisteminə xas olan qanunvericilk bazası işlənib hazırlanmışdır. Kiçik sahibkarlığın inkişafi üçün əlverişli mühitin yaradılınası və kiçik müəssisələrin fəaliyyətində dövlətin rolunun məhdudlaşdınlmasına istiqamətlənən hüquqi normativ aktlar qəbul edilrıişdir. Ölkədə bazar instutlarının formalaşdınlması, valyuta birjası, kredit, qiymətli kagızlar, lizing bazarlarının yaradılması istiqamətində mühüm işlər də görülmüşdür.

Hazırda prezidentimizin rəhbərliyi ilə ölkədə apanlan köklü islahatlar sosial-iqtisadi inkişaf sahəsində – davamlı, müasir və yeni mərhələyə keçidin təməlini qoyınuşdur. Ökədə əldə edilmiş iqtisadi inkişafin davamlılığı və maliyyə dayanıqlığı milli iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə gətirib çıxarır. Biznes mühitinin həmişə yaxşılaşdırılması, qanunverici1ik bazasının daha da təkmilləşdiri1məsi, müasir texnologiyaların, yerli və xarici sərmayələrin ölkəyə cə1b edilməsi yolu i1ə yüksək keyfiyyət1i məhsulların istehsal edilməsi iqtisadi inkişaf strategiyasının prioritetlərindən olmaqla yanaşı, ölkədə kiçik sahibkarlığın inkişafina təkan verir. Bugün əsas hədəf milli iqtisadiyyatımızın dünya təsərrüfat sisteminə inteqrasiyası, kiçik müəssisələrin inkişafinın sürətləndirilməsi nəticəsində ölkədə əldə edilmiş dinamik inkişafin davamlılığını və dayanıqlığını təmin etməkdir. (https://president.az/articles/35693)

Proqnozlara əsasən, yaxın gələcək dövr ərzində Azərbaycanda kiçik sahibkarlığın inkişafi istiqamətində nornativ-hüquqi baza daha da təkmilləşdirilərək, əhəmiyyətli islahatlar davam etdirilərək kiçik sahibkarlıq agentliyinin yaradılması nəzərdə tutulmuşdur. Nəzərdə tutulan tədbirlərin uğurla icra edilməsi nəticəsində kiçik saibkarlığın ÜDM-də, eyni zamanda məşğulluqda və müvafiq olaraq ölkənin qeyri-neft sektorunda payının da həcminin artırılması əsas hədəf kimi müəyyənləşdirilir.
(http://www.iqtisadiislahat.org/store//media/document/islahatlaricmali/SME_aze.pdf)

Azərbaycanda kiçik biznes mühtinin daha da inkişaf etdirilməsi, maliyyə resurslarına və xarici bazarlara çıxış imkanlarmın artırılması kiçik sahibkarlıq

subyektlərinin inkişafi üçün əlverişli şərait yaratmaqla yanaşı, ölkəmizdə kiçik sahibkarlıq subyektlərmin qeyri-neft sektorurıdakı payı və yüksək gəlir gətirən sektor1arda məşğulluq imkarıları artacaqdır.

Proqnoz edilir ki, 2025-ci ilədək - yaxın gələcəkdəki dövrdə kiçik sahibkarlığın gücləndirilməsi sayəsində ölkəmizin iqtisadi gücü daha da artacaqdır. Bunun da nəticəsində rəqabət mühiti tam təmin olunacağından ölkəmiz yerli investorlarla bərabər, xarici sərmayədarlar üçün də dünyamn ən ə1verişi ökəərindən birinə çevri1əcəkdir.

Respublikamızda bazar münasibətləri tam formalaşmadığından hələ rəqabət iqtisadiyyatın inkişafina tam olaraq təsir göstərə bilmir. Bu səbəbdən, dövlətimizin iqtisadi siyasəti onu inkişafinın stimullaşdırılmasına istiqamətləndirir. Kiçik biznes şəraitinin yaxşılaşdırılması hesabına sağlam rəqabət mühitin yaradılması, kiçik sahibkarlığın dinamik və məqsədə müvafiq inkişafi da mümkündür. Beləliklə, bu sahənin-kiçik biznesin inkişafi sosial problemləri də həll etməyə zəmin yaradır Bunlardan ən önəmlisi yeni iş yerləri yaradaraq işsizliyin qismən aradan qaldırılmasıdır. Odur ki, imkarıları məhdud olan, iş tapmaqda çətinlikliklərlə qarşılaşan şəxslər və işsiz1ər üçün yeni iş yer1əri yaradan kiçik müəssisələrə real-mümkün dəstəyin verilməsi və təsir göstərilrnəsi olduqca vacibdir.

Cəmiyyətin iqtisadi inkişafinın başlıca amillərindən biri kiçik sahibkarlıq fəaliyyətinin inkişafi, onun döv1ət tərəfindən hansı səviyyədə və forınada dəstəklənməsi ilə birbaşa bağ1ıdır. Başqa sözlə fikrimizi ifadə etsək, kiçik biznesin tənzimlənməsi ilə onun inkişafina əlverişli və səmərəli şəraitin yaradılrnası dövlətin mühüm vəzifələrindən biridir. Ö1kə iqtisadiyyatı üçün kiçik biznesin dövlət tənzimlənməsi və dəstəklənməsinin səmərəli sisteminin formalaşdırılması çox əhəmiyyətlidir. Kiçik biznesin dövlət tənzimlənməsi və dəstəklənməsinin səmərəli sisteminin formalaşdırılması kiçik müəssisələr və bütövlükdə ölkə iqtisadiyyatı üçün çox əhəmiyyətlidir. Kiçik biznes əhalinin geniş təbəqələrnin həyat səviyyəsini yüksəltməklə əlverişli şərait yaradır, yeni iş yerləri açmaqla cəmiyyət üçün lazımi mallar və xidmətlər, müxtəlif məhsulların istehlak edərək həm ölkənin, həm də onun

regionlarının iqtisadi inkişafina olduqca mühüm təsir göstərir. (Hüseyinli İ.Q. Quliyev R., Xəlilov H. və b., 2001)

Müasir dövrdə kiçik biznes sahiblərindən olan kiçik sahibkarların dəstəklənməsi sisteminin formalaşdırılması labüddür. Bu sistemin qənaətbəxş kiçik biznesin dəstəklənməsi istiqamətində əsaslı qərarların qəbul edilməsində bir sıra özünə xas maneələr yaradır. Daha dolğun baxsaq və təhlil qabiliyyətli sistemə yanaşsaq görərik ki, bütün səviyyələrdə qarşıya qoyulmuş məqsədə çatmaq olmur. Səbəbi isə idarəetmə sisteminin nəticə etibarilə pozulması olur. Səmərəli idarəetmə məqsədilə sahibkarlıg fəaliyyətinin idarəedilməsinin çoxsəviyyəli sistemini yaratmaq məqsədəuyğundur. (Yaqubov S.M., Sadıqov M.M., Əliyev Ə.Ə., 2001)

Kiçik müəssisələrin inkişafını ləngidən bir sıra amillər araşdırmalarımız nəticəsində meydana çıxmışdır:

- Dövlət və özəl qurumların və bunlar arasındakı əlaqələndirmənin istənilən səviyyədə olmaması;
- Maliyyə resurslarına çıxışda müəyyən çətinliklərin olması;
- Sahibkarlıq subyektləri arasmda əlaqənin zəif olrnası;
- Kiçik müəssisələrin beynəlxalq və regional bazarlara çıxışında məhdudiyyətərin olması.
- Maliyyə sektorunda təklif edilən məhsul və göstərilən xidmətlərin inkişafinda müəyyən problemlərin olması;
- Kiçik müəssisələrə dəstək göstərən dövlət orqanlarının sayının yetrincə olmaması.

Tədqiqatımızın nəticəsi kimi kiçik müəssisələrin inkişafını sürətləndirən bir sıra təkliflərin həyata keçirilməsi məqsədəuyğundur:

1. Kiçik müəssisələrin inkişafina daha çox dəstək proqramlarının hazırlanaraq həyata keçirilməsinin təşkil edilməsi;
2. Kiçik sahibkarlıq subyektlərinə kömək göstərilməsi məqsədilə kadrların hazırlanması, ixtisaslarının artırılması;
3. Qeyri-neft sektorunun inkişafinda kiçik müəssisələrin potensialından istifadə səviyyəsinin artırılması;

4. Dövlət satınalamlarına və infrasturktur layihələrinə kiçik müəssisələrin də cəlb edilməsi;
5. Kiçik müəssisələrə əlavə dəstəyin göstərilməsi üçün müxtəlif beynəlxalq proqrarnların imkanlarmdan istifadənin genişləndirilməsi;
6. Kiçik müəssisələr üçün məsəlhət xidmətlərinin verilməsi və zəruri sənəd1ərin vahid məkandan ə1də edilməsi üzrə mərkəz1ərin yaradılrnası;
7. Bazar tələblərinə cavab verən binzes və peşə təhsili imkanlarmın artırılrnası;
8. Baş verə biləcək fors major hallar üzrə hər zaman hazırlıqlı olunması; (Buna misal olaraq hal-hazırda qlobal xarakter daşıyan koronavirus (COVID-19) infeksiyasmın yayılınası halını misal göstərmək olar);
9. Kiçik və orta sahibkarlığı dəstəkləyən bankların stimullaşdırılması ilə dövlət tərəfindən kommersiya banklarmın rea1 sektora dəstəyini təmin etmək;
10. İslam bankçılığının fəaliyyət dairəsinin genişləndirilməsi üçün mövcud perspektivlərdən istifadə edilməsi (Bu sistemin ölkəmizdə inkişafi iqtisadi-sosial və strateji əlaqələrin gücləndirilməsi nəticəsində ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyətə malikdir);
11. Bu sahəyə maliyyə dəstəyi ilə yanaşı, xüsusi proqramlarla da dəstəyin verilməsi;
12. İqtisadi inkişaf üçün zəruri olan biznes-portfelin məzmununun müəyən edilməsi;
13. Böhran şəraitinin ram edilməsi üçün maliyyə axınının tənzimlənməsi, xərclərin idarə edilməsi ilə yanaşı izafi xərclərin minimuma endirilməsi;
14. Kiçik müəssisələr üçün imic formalaşdırılması və qorunub saxlanılması.

Kiçik sahibkarlığın subyektlərindən olan kiçik müəssisələrin inkişafi ilə birbaşa bağlı olan qanunvericiliyin daha da təkmilləşdirilməsi nəticəsində digər sahələr ürzə hüquqi normativ aktları təkmilləşdirilməsinin əlaqələndirilərək qarşılıqlı formada tamarnlanması böyük aktual1ıq kəsb edir. Bura rnülki qanunvercilik, əmək və məşğuluq, xarici iqtisadi fəaliyyət, məhkərnə işi, həmçinin maliyyə sahəsi ilə əlaqədar qanunlarm, xüsusən də Vergi Məcəlləsinin

təkmilləşdirilməsi (vergi dərəcələrinin azaldılrnası, sadələşdirilrniş vergi sisteminin tətbiqinin təkmilləşdirilməsi, vergi yoxlarnalarının aparılmasının düzgünlüyünün tərnin edilməsi) zərurəti xüsusilə nəzərdə saxlanılmalıdır. Bununla bağlı Azərbaycanda böhrandan sonrakı dövürdə iqitsadi fəallığı artırrnaqdan ötrü vergi yükünün azaldılrnası istiqamətində konkret təkliflər verilrnişdir. Həmin təkliflər arasmda vergilər haqqında (ƏDV-nin tədricən faiz dərəcəsinin azaldılması, hüquqi şəxslərdən tutu1an mənfəət vergisinin də həmçinin faiz dərəcəsinin endirilməsi, sadələşdirilmiş verginin sadə şərtləri olduğundan tətbiq dairəsinin genişləndirilrnəsi), eləcə də sosial sığorta haqqında təkliflər xüsusi yer tutur. (http://www.iqtisadiislahat.org/store//media/document/islahatlaricmali/SME_aze.pdf)

Ölkəmizdə kiçik müəssisələr üçün müəyyən kredit proqramlarının mövcud olmasına baxmayaraq, onları genişləndirmək, böyütmək və bazar prinsiplərinə uyğun möhkəmləndirmək lazımdır. Azərbaycanda yeni mikrokredit bankı hesabına kreditlərin həcmi, Milli Sahibkarlıq Fondu hesabına isə kiçik müəssisələrə verilən maliyyə resurslarının miqyası əhəmiyyətli dərəcədə artmışdır. Ölkədə bu səyləri genişləndirmək və daha əhəmiyyətlisi, kənd təsərrüfatı sektorunda maliyyə vəsaitlərinə çıxış məsələlərinin əlçatanlığını yaxşılaşdırmaq lazımdır.

Qeyd edilən faktlar onu göstərir ki, ölkədə kiçik müəssisələrin perspektiv inkişafi biznes fəaliyyətinin dayanıqlı strategiyasına əsaslanmalıdır. Bu əsasla, balanslaşan kiçik biznes sisteminin yaradılması, rəqabət strategiyasının işlənilərək həyata keçirilməsi, həmçinin, sahədə mövcud idarəetmə sisteminin əsaslı və sistematik şəkildə təkmilləşdirilməsi təmin olunmalıdır. Bu səbəbdən də müəssisələrin mövcud təcrübəsi əhatəli şəkildə təhlil olunmalı və fəaliyyətlərinə tətbiq edilməlidir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

### Azərbaycan dilində


1. Ataşov B., İbrahimov E., Novruzov N., (2009), Müəssisələrin maliyyəsi, Dərslik, “Kooperasiya” nəşriyyatı, Bakı, 339 səh.
2. Atakişiyev R., (2013, fevral) Azərbaycan iqtisadiyyatmda kicik müəssisələrin yeri və rolu adlı məqalə, "EcoVision" jurnalı (http://ser.az/az/pages/8/)
3. Atakişiyev R., (2013), Gənc sahibkarların yaddaş kitabçası, “Təkan TGİB” nəşriyyatı, Bakı, 140 səh.
4. Atakişiyev M.C., Nuraliyeva R.N., Abbasova N.H. (2012), İnvestisiya fəaliyyətinin təşkili, Dərslik, “Azərnəşr” nəşriyyatı, Bakı, 251 səh
5. Azərbaycan Respublikasmda kiçik və orta sahibkarlıq səviyəsində istehlak mallarmın istehsalma dair Strateji Yol Xəritəsi, 2016-cı i1 6 dekabr tarix1i Fərman
6. “Azərbaycan 2020: gə1əcəyə baxış” inkşaf konsepsiyası, 2012, 39 səh.
7. Əhmədov M.A., Hüseyn A.C. (2011) – İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları, Metodiki vəsait, “İqtisad Universiteti” nəşriyyatı, Bakı, 120 səh.
8. Əliyev R.B. (2007), İqtisadi təhlilin nəzəriyyəsi, Dərslik, “İqtisad Universiteti” nəşriyyatı, Bakı, 484 səh.
9. Gülməmmədov V., (2017) Azərbaycanda kiçik və orta sahibkarlıgın tənzinlənməsində vergitutma amilləri Azərbaycanın vergi jurnalı
10. Hacıyev Q. (2012), Təsərrüfat fəaliyyətinin təhlili, “Şərq-Qərb” nəşriyyatı, Bakı, 128 səh.
11. Hüseynov T. Ə. (2009), Firmanın iqtisadiyyatı, Dərslik, Bakı, “Azərnəşr” nəşriyyatı, 588 səh.
12. Hüseynov X. Ə., Novruzov .N. A. (2007), Maliyyə, Bakı, “Kooperasiya” nəşriyyatı, 463 səh.
13. Hüseynli İ., Qu1iyev R., Xə1i1ov H., Abbasov və b. (2001), Azərbaycan iqtisadiyyatında kiçik və orta sahibkar1ıq: nəticələr, probemlər və prespektivlər, “Səda” nəşriyyatı, Bakı, 593 səh.
14. İmanov Ə.Ş. (2009), Kiçik sahibkarlıq, “Elm” nəşriyyatı, Bakı, 365 səh
15. İsmayılov B.V. (2018) Starteji menecment, Dərs vəsaiti, “Təhsil” nəşriyyatı, Bakı, 296 səh.
16. Kazımlı X., Quliyev İ. (2011) İqtisadi risklərm qiymətləndirlməsi və idarə edilınəsi, Dərs vəsaiti, “İqtisad Universteti” nəşriyyatı, Bakı, 187 səh.
17. Niftullayev V.M., (2004), Sahibkar1ığın əsas1arı, Bakı, “Zaman” nəşriyyatı, 609 səh.
18. Novruzov N.A., Hüseyinov X.Ə. (2007), Maliyyə, Dərslik, “Kooperasiya” nəşriyyatı, Bakı, 464 səh.
19. Rəsullu R. (2015), Beynə1xalq iqtisadi münasibət1ər, Bakı, 511 səh.
20. Səbzəliyev S. (2018), Maliyyə hesabatı, Dərslik, “İqtisad Universiteti” nəşriyyatı, Bakı, səh.314

21. Seyfullayev İ.Z., (2019), Mühazirə materialı.
22. Şəkərəliyev A.Ş. (2009), Dövlətin iqtsadi siyasəti: reallıqlar və perspktivlər, “İqtisad Universiteti” nəşriyyatı, Bakı, 415 səh.
23. Yaqubov S.M., Sadıqov M.M., Əliyev Ə.İ. (2001), 1990-2000-ci illərdə Azərbaycan iqtisadyyatı: inkişaf meyli strategiyası və problemləri, Bakı, 321 səh.
24. Zeynalov V.Z. (2010), Maliyyə, Dərs vəsaiti, “İqtisad Universteti” nəşriyyatı, Bakı, 361 səh.


## Xarici dildə

### Türk dilində

1. Aracı H. ve Yüksel F. (2016), “Şeffaflık ve Hesap Verilebilirliğin Sağlanmasmda Sürdürülebilirlik Raporları: BIST Sürdürülebilirlik Endeksindeki Şirketlerin Sürdürülebilirlik Raporlarmın İncelenmesi”, Muhasebe Bilim Dünyası Dergisi, 18 (Özel Sayı-l), s.285.
2. Uludağ İ., Serin V. (2014), Küçük ve Orta Ölçekli İşletmeler - Yapsal ve Finansal Sorumlar, Çözümler, İstanbul Ticaret Odası, Yayın No. 1, s.159.


### Rus dilində

1. Богатин Ю.В. Оценка эффективности производственного бизнеса и инвестиций. - Ростов на Дону: изд-во Ростовской государственной экономической академии, 1998, 164 с
2. Богачкова Л.Ю. Регулирование развития малого и среднего бизнеса в России, 26 June 2018, № 4, s.4
3. Ефимова О.В., Гребенщикова Е.В. (2016), Финансовая устойчивость предприятия: критерии и методы оценки в рыночной экономике. М.: Финансы и статистика, 358стр.
4. Ковалев В.В. (2018), Финансы организаций (предприятий), М.: ТК Велби, Изд-во Проспект, 245стр.
5. Крылов С.И. (2016), Финансовый анализ, 162стр.
6. Стояновой. Е.С. (2009), Финансовый менеджмент: теория и практика, под ред. 6-е изд, М.: Перспектива, 245стр.
7. Шеремет А.Д., Негашев Е.В. (2001) Методика финансового анализа. - М.: ИНФРА-М, 172 с


### İnternet resursları

1. http://www.e-qanun.az – Azərbaycan Respublikası Ədilyyə Nazirliyi Normativ hüquqi aktlarm vahid internet elektron bazası

2. http://www.audit.gov.az – Azərbaycan Respublikası Auditorlar Palatasının rəsmi veb saytı
3. https://banker.az – İqtisadi, biznes və maliyyə xəbərləri saytı
4. https://economy.gov.az – Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəsmi saytı
5. https://dergipark.org.tr – Türkiyede yayım1anan akademik dergi1er için e1ektronik site
6. http://iqtisadiislahat.org – İqtisadi İslahatlarm Təhlili və Kommunikasiya Mərkəzinin rəsmi saytı
7. https://president.az – Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı
8. http://www.lib.bbu.edu.az – Bakı Biznes Universitetinin kitabxana saytı
9. http://muhaz.org/maliyye-siyasetinin-mahiyyeti-ve-prinsipleri.html
10. http://sahibkarol.biz – Sahibkarların virtual tədris mərkəzi saytı
11. https://www.researchgate.net/publication/321151689_Gnc_Sahibkarlarin_Maliyy_Problemlri_v_Onun_Hlli_Yollari
12. https://storybuilder.jumpstart.ge/en/azrbaycanda-kicik-v-orta-biznesin-inkisafi-niy-lngiyir

## Cədvəllərin siyahısı

Cədvəl 1. İstifadəçilərin maliyyə hesabatlarına yanaşma tərzi ........ 38
Cədvəl 2. “X” şirkətinin 31/12/2019 tarixinə maliyyə vəziyyəti haqqında hesabatı ........ 39
Cədvəl 3. “X” şirkətinin 31/12/2019 tarixinə mənfəət və zərərlər haqqında hesabatı ........ 40
Cədvəl 4. “X” şirkətinin 31/12/2019 tarixinə kapitalda dəyişiklik haqqında hesabatı ........ 40
Cədvəl 5. Müəssisələrin maliyyə strategiyasının işlənilməsi sxemi ........ 68